TÜRKİYƏNİN GƏLƏCƏYİNƏ

# OSMANLI BAXIŞI



HARUN YƏHYA

HARUN YƏHYA (ADNAN OKTAR)

# TÜRKİYƏNİN GƏLƏCƏYİNƏ OSMANLI BAXIŞI

*Osmanlı mirası, Türk dünyası, Balkanlar, Orta Şərq və Qafqaz — və bütün bunların həlli: İslam birliyi.*

— 14 fəsil —

# Mündəricat


1 Oxucuya 4

2 Yazıçı və əsərləri haqqında 6

3 Ön söz 9

4 Sahib olduğumuz miras 13

5 Bir cahan imperiyası: Osmanlı 20

6 Mirasımıza sahib çıxmaq 30

7 Türk dünyasında mövcud vəziyyət 56

8 Balkan yarımadasını başa düşmək 60

9 Orta Şərqə sülhü gətirmək 86

10 Xilaskarını gözləyən Qafqaz və Orta Asiya 100

11 Həll yolu və nəticə 111

12 İslam birliyinə doğru 115

13 İslam dünyasına çağırış 128

14 Ədəbiyyat 129

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

# Ön söz

**Tarix Türklərdən çox şey öyrəndi. Onların əlindən çıxma elə əsərlər var ki, mədəniyyət üçün bəzək təşkil edir1...**






Türk millətinin tarix boyu qurduğu dövlətlərin sayının 180-ə çatdığı qəbul edilir. Hətta bir çox tarixçi, tədqiqatlar dərinləşdikcə bu sayının daha da arta biləcəyini ifadə etməkdədir. Bu dövlətlərdən 16-sı isə dünya tarixində təsirli rol oynamış, çox güclü dövlətlərdir.2 Prof. Dr. Kamal Tahirin 1966-cı ildə dediyi kimi:

**"Türk millətinin bütün tarix boyu bayraqsız və dövlətsiz qalmaması təsadüfi və boşuna deyil. Onun nüvəsindəki dinamizm, ona dövlət qurma uyğunluğu gətirib... Dövlət qurmaq başqa bir şeydir, dövləti idarə etmək başqa bir şeydir. Türk milləti tarix boyu dövləti həm qurmaqda, həm idarə etməkdə ustalıq göstərmişdir."3**

Türk milləti hər biri digərindən güclü olan bu 16 dövlətlə və bu dövlətlərin rəhbərliyində göstərdiyi üstün qabiliyyətlə bütün dünya millətlərinə tarix boyu nümunə olmuşdur. Bunun ən əhəmiyyətli səbəblərindən biri isə hakimiyyəti altında yaşayan fərqli etnik mənşəyə mənsub birlikləri, hər birinin dil və din fərqinə hörmət göstərərək, sülh, hüzur və təhlükəsizlik içərisində, əsrlər boyu bir yerdə yaşatma bacarığını göstərməsidir. Eyni torpaqlar üzərində hakimiyyət quran fərqli dövlətlər isə bu müvəffəqiyyəti təmin edə bilməmiş, bu torpaqlarda bu qədər uzun hakimiyyət yaşanmamışdır.

Səlcuq və Osmanlı dövlətləri başda olmaq üzrə, Türk millətini bu coğrafiya ilə birləşdirən və güclü edən ünsürləri sadəcə hərbi qüvvə ilə açıqlamaq mümkün deyil. Anadolunu fəth edən, Adriatikdən Çin Səddinə qədər dünyanın ən qarışıq və ən həssas zonasını əsrlər boyu hakimiyyəti altında tutan qüvvə, Türk millətinin özündə var olan və Türklərin İslamı qəbul etməsi ilə birlikdə əsl şəxsiyyətini tapan əxlaq anlayışıdır.

Quranda əmr edilən bu əxlaqın başlıca xüsusiyyətləri, dürüstlük və mərdlik, zülmdən və haqsızlıqdan uzaq durmaq, ədalətə həmişə dəstək olmaq, tolerantlıqdan və anlayışdan yana olmaqdır. Bu xüsusiyyətlərə görədir ki, onlara tabe olan xalqlar da həmişə müsəlman Türklərin rəhbərliyindən razı olmuş, hətta çox vaxt öz istəkləri ilə onların rəhbərliyi altına girmişlər. Ən kamil mənada Osmanlı İmperatorluğunda təzahür edən bu ədalətli rəhbərlik sayəsində bütün Balkan yarımadasını, Qafqazı və Orta Şərqi əhatə edən coğrafiyada, üç dinə və müxtəlif məzhəblərə mənsub, dilləri, mədəniyyətləri, irqləri bir-birlərindən tamamilə fərqli milyonlarla insan əsrlər boyu heç bir zülmə məruz qalmadan hüzur içində yaşamışlar.

Ancaq indiki vaxtda eyni torpaqlar üzərində kədər, gözyaşı, zülm və müharibə heç cür sona çatmır. Balkan yarımadası, Orta Şərq və Qafqazdan ibarət olan və Türkiyənin tam mərkəzində yer aldığı “Osmanlı coğrafiyası” hələ də çox hərəkətli və qarışıq bir quruluşa malikdir. Osmanlı dövlətinin siyasi olaraq varlığının ləğv olmasından sonra bu regionda yaranan boşluq hələ də doldurula bilinməyib və həqiqi mənada bir güvən mühiti təmin edilə bilinməyib. Bu vəziyyət eyni torpaqlarda əsrlər boyu nümunəvi “birlikdə yaşama modeli” tətbiq edən müsəlman Türk millətinə diqqəti çəkməkdədir. Və bu modelin indiki vaxtda və gələcəkdə də ancaq müsəlman Türk milləti tərəfindən reallaşdırıla biləcəyi həqiqətini ortaya qoymaqdadır. Necə ki, son illərdə bir çox dövlət adamı və siyasi alim, başda Osmanlı dövləti olmaq üzrə, Türk

dövlətlərinin müvəffəqiyyətlə icra etmiş olduğu ədalətli idarəetmə sistemini araşdırmaqdadır. Bu araşdırmadakı məqsəd isə, Türklərin reallaşdırdığı sistemi əsas alan, yeni idarəetmə modeli yaratmaqdır.

Məhz bu kitabdakı məqsədimiz də, 1900-cü illərin əvvəlindən bu yana müharibələrin və qarşıdurmaların bitmədiyi Orta Şərqə, Balkan yarımadasına və Qafqaza qalıcı sülhün gətirilə bilməsinin, ancaq bu tarixi mirasın varisi olan Türkiyənin liderliyində mümkün ola biləcəyini göstərməkdir. Türkiyənin liderliyində yaradılacaq birlik, həm qarşıdurmaların sonu olub regiona qalıcı sülhü gətirəcək, həm də bütün bölgə ölkələrinin güclü iqtisadi əməkdaşlıq içərisinə girmələri ilə bütün xalqların həyat keyfiyyətini yüksəldəcək.

Bu bölgədə yaşayan dövlətlərin hərbi, siyasi və iqtisadi baxımdan ən güclü ola biləcəkləri model, bir-birləri ilə zidd düşmək əvəzinə güclərini birləşdirmələri ilə meydana gələcək bir modeldir. Ortaq bir xarici siyasət bu dövlətləri dünya siyasətində böyük güc halına gətirəcək. Bu səbəbdən 21-ci əsrə addım atdığımız bu günlərdə də Türkiyənin gələcəyə dair missiyası, tarixdəki Türk dövlətlərinin böyüklüyünə və şanına yaraşacaq xüsusiyyətdə olmalıdır. Üstəlik bu missiya tarixdə olduğu kimi bu gün də Türk millətini zirvəyə daşıyacaq, layiq olduğu lider dövlətlər arasına daxil edə biləcək missiya olmalıdır. Dünya tarixinin ən güclü dövlətlərini qurmuş, bütün Aralıq dənizi və Orta Şərq coğrafiyasına nizam vermiş olan Türk millətinin axtarmış olduğu həll və çıxış yolları, öz tarixində mövcuddur.

FƏSİL

# Sahib olduğumuz miras

“Türklər irq və millət olmaq şərəfi ilə yer üzünün ən şərəfli insanlarıdır. Xarakterləri çox nəcib və ucadır... Ləyaqətləri alınlarında və əməllərində yazılıdır... Onların yurdu əfəndilər diyarıdır, qəhrəmanlar, şəhidlər ölkəsidir.”










## (Fransız şair Alphonse de Lamartine)

Siyasət tarixi ilə bir az əlaqəli olan hər kəsin çox yaxşı bildiyi bir həqiqət vardır: Tarixindən qopan və şəxsiyyətini itirən millətlər, əsla güclü və qalıcı bir dövlət qura bilməzlər. Keçmişini yaxşı bilən, edilən səhvlərdən dərs alıb, başarılı qərarları nümunə götürən, qısaca tarixinə sahib çıxan millətlər dünya tarixində həmişə təsirli rol oynamışlar. Tarixini qəbul etməyən, tarixindən qaçan millətlərin isə gələcəyi ola bilməz.

Türk millətinin dünya tarixinin hər dövründə lider millətlər arasında yer alması da, millətimizin bu şüura sahib olması ilə əlaqədardır. Necə ki, Türkiyənin sahib olduğu miras, coğrafi olaraq Adriatikdən Çin səddinə qədər dünyanın ən əhəmiyyətli və ən strateji sahəsini ehtiva etməklə birlikdə, Türk milləti izlərinin silinməsi əsla mümkün olmayan bir mədəniyyətin də varisidir. Türklər hakim olduqları torpaqlarda qurduqları üstün mədəniyyətlər sayəsində, hər dövrdə və hər şərtdə etibarlı olan birləşdirici bir mədəniyyət mirası meydana gətirmişlər. Məhz 21-ci əsrdə Türk millətini təkrar lider millətlər sinfinə daxil edəcək olan miras da, bu güclü və təsirli mədəniyyət mirasıdır.

Bəs mədəniyyət mirası deyiləndə nəzərdə tutulan nədir? Türklərin sahib olduqları mirası bu qədər yıxılmaz və möhkəm edən ünsürlər nələrdir?

Türklər tarix boyu dövlət rəhbərliyindəki müvəffəqiyyətləri ilə xatırlanmışlar, eyni dövrdə digər cəmiyyətlərlə müqayisə edildikdə onlara görə olduqca irəli mədəniyyətlərin qurucusu olmuşlar. İslamiyyətin qəbulundan əvvəl də böyük bir sivilizasiyaya sahib olan Türklər, Uzaq Şərqdən Balkan yarımadasına, hətta Orta Avropaya qədər yayılmışdılar. Çin, Hindistan, İran, Roma və Bizans dövlətlərinin sərhədlərini aşan bu sahələrdə bir çox əhəmiyyətli siyasi yaranmanın içində yer aldıqları kimi, mədəni olaraq da bütün dünya dövlətlərinə nümunə olacaq miras buraxmışlar. Həmin dövrdə qurulan Türk dövlətləri əkinçilik, ticarət, mədənçilik, heyvandarlıq, silah istehsalı, sənət və elm kimi bir çox sahədə digər qövmlərə liderlik etmişlər. Bu gün həmin bölgələrdəki arxeoloji tədqiqatlar bu həqiqəti açıq şəkildə ortaya qoymaqdadır. Bu qazıntılarda əldə edilən Türk hakimiyyətinə aid bir çox qiymətli sənət əsəri, heykəllər, miniatürlər, çinilər, parçalar və divar şəkilləri bu gün Berlin, Moskva və Kəlkətə muzeylərini bəzəməkdədir.

Həmçinin Türk millətinin mədəniyyət təcrübəsinə dərindən təsir edən ən əhəmiyyətli ünsür isə İslamiyyətin qəbulu olmuşdur. Türklər 8-ci əsrdə məşhur Talas müharibəsindən sonra kütlələr halında müsəlmanlığı qəbul etmişlər və möhkəm bir bağla bağlandıqları İslam dininin bayraqdarlığını və liderliyini şərəflə boynuna götürmüşlər.

Müsəlmanlığa giriş Türk tarixində çox əhəmiyyətli bir məhəkdaşıdır. Türklər ənənələri gərəyi olan dürüstlük, mərdlik, cəsarət kimi xüsusiyyətləri İslamı yaşamağa başladıqdan sonra daha da gücləndirmişlər, Quran əxlaqını tanımaları ilə birlikdə ədalətli, anlayışlı, uzaqgörən, vicdanlı liderlər yetişdirməyə başlamışlar. Eyni zamanda müsəlmanlıq, tayfalar halında yaşayan Türklər arasında birlik

qurulmasına da vəsilə olmuşdur. İnancda və dildə birlik təmin edilməsi ilə daha da güclənmişlər, tarix səhnəsində daha möhkəm addımlarla irəliləməyə başlamışlar. Müsəlmanlıq dövlət anlayışında da əhəmiyyətli dəyişikliklərə vəsilə olmuş, qısa davam edən dövlətlərin yerini Türk tarixində ilk dəfə uzun ömürlü cahan dövlətləri almağa başlamışdır. Türklər artıq 10-20 illik qısa ömürlü deyil, İslamı yayma və yaşatma məqsədində olan 150-200 illik dövlətlər qurmağa başlamışlar. Məsələn dünya səviyyəsində deyə biləcəyimiz bir dövlət olma xüsusiyyətinə sahib olan Qaraxanilər köklü mədəniyyəti ilə Səlcuqlar izləmişdir.

Anadoluda hökm sürdükləri dövr boyu istər Böyük Səlcuq İmperiyası, istər Anadolu Səlcuq İmperiyası Türk-İslam dövlətinin necə bir quruluşda olacağının və necə icra ediləcəyinin ən təəccüblü nümunələrini təqdim etmişlər. Olduqca izdihamlı Xristian cəmiyyətlərin və çox fərqli mədəniyyətlərin iç-içə girdiyi Anadolu xalqlarını idarəsi altında saxlayan Səlcuq sultanları, Türk ənənəsinin və İslam əxlaqının gərəyi olaraq geniş tolerantlıq çətiri altında hər fikirdən insanı qucaqlamışlar. Məşhur tarixçi Urfalı Mathiu, Böyük Səlcuq İmperiyasının güclü Hökmdar Məlikşahın siyasət anlayışından bu cür bəhs edir:

**"Məlikşah səltənəti Allahın lütfünə məzhər oldu. Hakimiyyəti uzaq ölkələrə qədər yayıldı və hüzur verdi. Ürəyi Xristianlara qarşı şəfqətlə dolu idi. Keçdiyi ölkələrin xalqlarına qarşı ata kimi davrandı. Bir çox şəhər və vilayətlər öz istəkləri ilə onun idarəsinə daxil oldu, bütün Rum diyarları onun qanunlarını tanıdı."4**

Şübhəsiz Səlcuq sultanlarının bu geniş tolerantlıq anlayışlarının təməlində, aldıqları İslam tərbiyəsi vardır. Necə ki, Allah Quranda inananların ən əhəmiyyətli məsuliyyətlərindən birinin yaxşılığı izah edib pislikdən uzaqlaşdırmaq olduğunu ifadə edir. Müsəlmanlar ancaq doğrunu izah etməklə məsuldur, hidayəti verəcək olan isə Allahdır. Buna

görə də, Quranda insanların dinini dəyişdirməsi ya da İslama dönməsi üçün təzyiq və güc tətbiq etmək qadağan edilmişdir. Bəqərə surəsində belə buyurmaqdadır:

> *Dində məcburiyyət (zorakılıq) yoxdur. Doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edilmişdir. Artıq kim Tağutu (bütləri və ya şeytanları) inkar edib Allaha iman gətirərsə, o, heç vaxt qırılmayan ən möhkəm qulpdan yapışmış olar. Allah hər şeyi eşidəndir, biləndir!*
>
> **(Bəqərə surəsi, 256)**

Beləcə hərbi qəhrəmanlıq ilə dastanlar yazdıran Səlcuq liderlər, icra etdikləri əxlaqlı və inanclı siyasət sayəsində də minlərlə insanın könülündə taxt qurmuş, bu xüsusiyyətləri ilə tarixə keçmişlər. Necə ki, Yusif Has Hacib, Əhməd Yəsəvi, Əlişir Nəvai, Yunis Əmrə, Cəlaləddin Rumi, İbn Ərəbi, Sədrəddin Konəvi kimi dünya səviyyəsində alimlərin yetişdiyi bu dövrdən geriyə bütün dünya tarixinə təsir edən köklü mədəniyyət təcrübəsi miras qalmışdır.

Səlcuqlardan sonra qurulan Osmanlı dövləti isə 600 ildən çox müddət ərzində çox geniş coğrafiyaya hökm etmiş, dünya siyasətini istiqamətləndirən təməl aktyorlardan biri olmuşdur. Osmanlı İmperiyası, üç dinə və müxtəlif məzhəblərə mənsub, dilləri, mədəniyyətləri, irqləri fərqli, bir-birlərindən tamamilə ayrı dünya görüşlərinə və inanışlara sahib olan milyonlarla insanı və çox geniş bir coğrafiyanı altı əsr boyunca idarə etmişdir. Üstəlik bu rəhbərlik zorakılıq və təzyiqlə deyil, anlayış və ictimai ittifaqa söykənən rəhbərlik olmuşdur. Osmanlı İmperiyasını bu cür ucaldan səbəblərin başında isə, bu dövləti idarə edən hökmdarların və bürokratiyanın, İslam sayəsində qazandıqları ədalət anlayışı və "İlayi-kəlimətullah" (Allahın Sözünü yaymaq) idealı vardır.

FƏSİL

# Bir cahan imperiyası: Osmanlı

**“Osmanlıya iki qitə üzərində hökm etmək bəs etməz. Çünki Allahın əzmi iki qitəyə sığmayacaq qədər böyük bir davadır. Səlcuqların varisi biz olduğumuz kimi, Romanın da varisi bizik.”5**




## (Orxan Qazinin oğlu Murad bəyə nəsihəti)

Səlcuq dövlətinin nüfuzunun dağılmasından sonra ortaya çıxan Anadolu bəyliklərindən biri də Osmanlı bəyliyidir. Osmanlı bəyliyi qısa müddətdə inkişaf etmiş və dövrünün ən əhəmiyyətli dövlətlərindən

biri halına gəlmişdir. Türk-İslam bayrağını ucaltma məqsədi daşıyan bu dövlət, olduqca qısa müddət ərzində müxtəlif din, dil, irq və məzhəblərə sahib millətləri öz ətrafına toplayan nəhəng bir dünya dövləti halına gəlmişdir. Memalik-i Osmaniye (Osmanlı ölkələri) üç qədim qitənin birləşdiyi sahəni, digər bir deyişlə Avropanın Cənub-Qərbini, Afrikanın Şimalını və Asiyanın Cənub-Qərbini əhatə edir. Dövlətin torpaqlarının ən geniş olduğu dövrdə sahəsi 24 milyon km2-ə çatırdı. Cənubi Amerika qitəsinin sahəsinin təxminən 21 milyon km2 olduğu nəzərə alınsa, Osmanlı İmperiyasının torpaqlarının genişliyi daha yaxşı aydın olur. Tarix boyu güclü və böyük mədəniyyətlərə ev sahibliyi etmiş olan bu torpaqlarda qurulan ən son və ən uzun ömürlü mədəniyyət Osmanlı mədəniyyətidir. 600 illik ömründə 400 il boyu dövlətin ən geniş sərhədlərini əlində tutan, geriləmə dövrü dediyimiz 200 il boyunca belə olduqca çox torpaq itirməyən, süqut dövrü olan 20-ci əsrin əvvəllərinə qədər gücünü və təsirini mühafizə edən Osmanlı, “dünya dövləti” ünvanına artıqlaması ilə layiq olmaqdadır. Şübhəsiz belə böyük bir dövlətin bu qədər uzun ömürlü olmasını ancaq hərbi güclə açıqlamaq mümkün deyil. Osmanlı dövlətini dünya dövləti ünvanına layiq edən ünsürlərin başında təməlini söykədiyi və gücünü aldığı mənəvi dəyərlər gəlməkdədir. Hər şeydən əvvəl Osmanlı dövləti, dövlətin qurucusu olan Osman Qaziyə Şeyx Ədəbalı tərəfindən verilən bu nəsihətlər üzərinə inşa edilmişdir:

**“Ey oğul, artıq Bəysən! Bundan sonra qəzəb bizə, itaətlilik sənədir. Küskünlük bizə, könül almaq sənədir. Günahlandırmaq bizə, dözmək sənədir. Acizlik bizə, xoş görmək sənədir. Anlaşılmazlıqlar bizə, ədalət sənədir. Haqsızlıq bizə, bağışlamaq sənədir...**

**Dünya sənin gözlərində gördüyün kimi böyük deyil. Bütün fəth edilməmiş sirlər, bilinməyənlər, görülməyənlər ancaq sənin fəzilət və ərdəmlərinlə gün işığına çıxacaq.”6**

Türk-İslam əxlaqının ən gözəl əks olunmasından biri olan Şeyx Ədəbalının bu öyüdlərində də gördüyümüz kimi, Osmanlı dövlətinin hərəkət nöqtəsi Quranda bütün insanlara əmr edilən gözəl əxlaqdır. Məhz bu əxlaq Osmanlını kiçik bir bəylik ikən, 3 qitəyə hökm edən bir dövlət halına gətirmişdir. Osmanlının ədalət anlayışı, tolerantlığı və meydana gətirdiyi birləşmə mühitinin təməlində də İslam əxlaqı vardır.

Osmanlının İslam əxlaqı

Osmanlı dövləti üçün İslamın bayraqdarlığını etməkdən, İslamın ədalətini və əxlaqını dünyaya yaymaqdan daha böyük bir hədəf yox idi. Buna görə də, Osmanlı fəth etdiyi torpaqlarda yenə Quranda əmr edildiyi kimi heç bir zorakılıq və təzyiq etmədən İslam əxlaqını yaşatdı və hakim etdi. Osmanlı üçün ancaq müsəlman və Türk xalqının rahatlığı və xoşbəxtliyi deyil, özünə tabe olan hər dildən və hər dindən insanın rahatlığı və xoşbəxtliyi əhəmiyyətli idi. İslam əxlaqının gərəyi olaraq Osmanlı padşahları kömək istəyən insanlara (inancsız da olsa), ehtiyaclı olana kömək etmiş və bunun Allaha qarşı olan məsuliyyətlərindən biri olduğunu bilmişlər. Bu, iman edənlərə Quranda bildirilən bir əmrdir:

> *Əgər müşriklərdən biri səndən aman diləyərsə, Allahın kəlamını dinləyənə qədər ona aman ver. Sonra (iman gətirməzsə,) onu əminlikdə olacağı yerə çatdır. Bu ona görədir ki, onlar bilməyən bir qövmdür.*
>
> **(Tövbə surəsi, 6)**

Osmanlı üçün ələ keçirdiyi torpaqların hamısı "vətən torpağı" idi və Dar-ul İslam (İslam yurdu) olaraq qəbul edilən bu torpaqlarda yaşayan insanların hamısı da İslamın xəlifəsi olan padşaha əmanət idilər. Osmanlı padşahlarının Allah və peyğəmbər sevgiləri hər işdə etidallı, ədalətli, mərhəmətli və dolayısı ilə də, müvəffəqiyyətli olmalarını təmin etmişdir.

Osmanlı padşahlar özlərini xalqın işlərini etmək üçün Allah tərəfindən vəzifələndirilən insanlar olaraq görərdilər və xalqa xidmət etməyi əsas vəzifələri sayardılar. Piri Paşanın Yavuz Sultan Səlim üçün işlətdiyi sözlər bu həqiqəti açıq şəkildə gözlər önünə sərir:

**Özlərini padşah bilməzdilər. "Haqq Təalanın məzlum və yoxsul qullarının və yer üzündəki bütün qullarının təhlükəsizliyini qorumaq üçün göndərdiyi dəyərsiz biriyəm" deyə buyurardılar...7**

İslam əxlaqının yaşandığı və hakim olduğu Osmanlı torpaqları eyni zamanda çox böyük alimlərin də vətəni idi. Osmanlı rəhbərlər hərbi və mülkü topluluğa olduğu qədər, elm əhlinin də fikirlərinə əhəmiyyət verər, aldıqları qərarlarda onlarla müşavirə edərdilər. Ədalətin təmin edilməsi üçün çox böyük səy sərf edərdilər. Osmanlı padşahları, xalqa qarşı dövlət nüfuzunu sui-istifadə edən idarəçiləri bu davranışından daşındıran bir çox qanunnamə dərc etmişlər, özlərinin şəxsən şahid olmadıqları mühitlərdə belə xalqın dövlətdən razı olacağı bir sistem qurmuşdular. Dövlət vəzifəli şəxslərinin qanun və ədalətə zidd davranmasını qəti şəkildə qadağan edən bir çox bəyannamədən biri də Səməndərə qazısına göndərilən bəyannamədir. Padşah bu bəyannamədə xalqın özünə Allahın bir əmanəti olduğunu ifadə etdikdən sonra, qanuna zidd olaraq Sancak bölgəsi bəylərinin və digər vəzifəli şəxslərin onlardan çox bir şey almalarını zülm hesab etməkdə və bunu şiddətlə qadağan etməkdədir. Bu əmri yerinə yetirməkdə laqeydliyi və nöqsanı görünənlərin dərhal cəzalandırılmalarını əmr etməkdədir.8

Türk-İslam əxlaqının gətirdiyi ədalət sistemi, Osmanlı dövlətini müasir dövlətlərdən qat-qat üstün edən təməl xüsusiyyətlərdən biri idi. Osmanlıların yaşamaqdan şərəf duyduqları İslam əxlaqı, onlara öz əleyhinə olsa belə ədaləti əmr edirdi. Nisa surəsində bildirilən bu əxlaq

xüsusiyyəti, Osmanlının və bütün müsəlmanların üstün ədalət anlayışının da təməl daşıdır:

> *Ey iman gətirənlər! Özünüzün, ataananızın və ya qohumlarınızın əleyhinə olsa belə, daim ədaləti təmin edən və) Allah üçün şahidlik edən kimsələr olun! (Haqqında şahidlik etdiyiniz kimsələr) istər varlı, istər kasıb olsun, Allah hər ikisinə də (sizdən) daha yaxındır. Nəfsinizin arzusuna uyaraq haqdan üz çevirməyin! Əgər (yalan danışaraq dilinizi) bükər, yaxud (şahidlikdən) boyun qaçırarsınızsa, (bilin ki,) həqiqətən, Allah sizin etdiklərinizdən xəbərdardır!*
>
> **(Nisa surəsi, 135)**

Türklərin ələ keçirdikləri torpaqlarda, bu düşüncə və inancla, ədalətli, şəfqətli, mərhəmətli, irq və tayfa təəssübkeşliyindən uzaq siyasət izləmələri, Türk idarəsinin bir çox ölkə tərəfindən xilaskar olaraq qarşılanmasına səbəb oldu.

Din və vicdan azadlığı, bütün Türk dövlətlərində olduğu kimi, Osmanlı dövlətində də xüsusi diqqətlə tətbiq olundu. Osmanlı torpaqlarında kilsə, sinaqoq və məscidlər yan-yana idi. Buna görə də, başda Katolik Avropanın qatı təzyiqlərinə məruz qalan Ortodoks Balkan xalqları olmaq üzrə bir çox xalq, bir çox dəfə, Xristian rəhbərlər yerinə müsəlman Türklərin rəhbərliyi altında yaşamağı seçdilər. Ancaq Xristianlar deyil, 15-ci əsrin sonlarında İspaniyadakı Yəhudilər də kütlələr halında, ədalətindən və onlara təmin edəcəyi din azadlığından əmin olduqları Osmanlı rəhbərliyinə sığındılar.

Əhəmiyyətli tarixçilərimizdən Prof. Dr. İsmət Miroğlu, “Tarix və mədəniyyət” jurnalında nəşr olunan bir məqaləsində Osmanlıdakı din və

vicdan azadlığına geniş şəkildə yer verməkdədir. Miroğlunun ifadə etdiyi kimi Rus kilsəsinin zülmünə dözə bilməyən Qazaxıstan da din azadlığını Osmanlı idarəsində görən xalqlardandır.9 Prof. Miroğlu bu məqaləsində Antalya Patriarxı Makariosun, Ortodokslara zülm edən Katolik Polşalıları Osmanlı idarəsi ilə müqayisə edən bu sözlərinə də toxunmaqdadır:

**"O imansızlar tərəfindən öldürülən minlərlə insana, qadın, qız və kişilərə ağladıq. Lehlilər Ortodoks adını dünyadan yox etmək istəyirlər. Allah Türklərin dövlətini əbədi etsin. Çünki Türklər vergi aldıqdan sonra Xristian və Yəhudilərin dinlərinə toxunmazlar."10**



Osmanlı tarixi mövzusunda mütəxəssis olmuş olan məşhur tarixçi Artur Gibbonsun "Osmanlı İmperatorluğunun quruluşu" adlı əsərində Osmanlılar haqqında yer verdiyi bu təsbitlər də Osmanlı tolerantlığının isbatı xüsusiyyətindədir:

| | Yüzölçümü ($km^2$) | Nüfusu (1995) (bin Kişi) |
|---|---|---|
| Osmanlı Devleti | 11437706 | 373957 |
| Osmanlı Devleti Etkisindeki Topraklar | 39030974 | 1919955 |
| Toplam | 50468680 | 2293912 |
| Dünya Genel Toplamı | 133389909 | 5717952 |
| Toplamın Dünya Geneline Oranı | 37,8 | 40,1 |



"...Bu bir həqiqətdir ki, Türklər yeni zaman ərzində milliyyətlərini təsis edərkən din azadlığı fikrini təməl daşı olaraq qoymuş bir millətdir. Davamlı Yəhudi və Xristian təzyiqlərinə müqabil, Türklərin Balkan yarımadasına daxil olmasından sonra yerli müsəlman olmayanlarla yeni gələn müsəlmanlar əsrlərlə ahəng içində yaşamışlar."11





Məhz tarixçilərin və tədqiqatçıların da tez-tez dilə gətirdikləri bu ədalətli və tolerant anlayış, Osmanlı rəhbərliyinin Türk-İslam əxlaqına xas xüsusiyyətlərindən qaynaqlanmaqdadır.



Əsrlər boyu şanlı dövlətlər qurmuş, 3 qitəyə hökm etmiş bir millətin nəvələri və 21-ci əsrdə yeni bir dünya dövləti qurmağa namizəd bir millətin fərdləri olaraq bizlərə düşən isə, Osmanlını Osmanlı edən bütün maddi və mənəvi dəyərlərin əhəmiyyətini doğru bir şəkildə anlamaq və tətbiq etməkdir.



Osmanlı nümunəsi göstərməkdədir ki, Türk milləti çox geniş bir coğrafiyanı asanlıqla idarə edə biləcək təcrübəyə, qabiliyyətə və gücə malikdir. Əhəmiyyətli olan Osmanlının üzərində yüksəlmiş olduğu dəyərləri yaxşı anlamaq, bunları yenidən və dövrümüzə uyğun şəkildə şərh etmək və tətbiq etməkdir.



FƏSİL

# Mirasımıza sahib çıxmaq

"Könül istəyər ki, Afrikanın şimalından Əndəlüsə çıxım və sonra Balkan yarımadası üzərindən təkrar İstanbula qayıdım!"12





























## (Yavuz Sultan Səlim Misirin fəthindən sonra İstanbula qayıdarkən)

Bura qədər izah edilənlərdən də aydın olacağı kimi Türk milləti son dərəcə möhkəm və köklü bir mirasa malikdir. Bu nöqtədə əhəmiyyətli olan bu mirasın əhəmiyyətini gərəyi kimi qavraya bilmək və keçmişimizə sahib çıxaraq üzümüzü gələcəyə dönə bilməkdir. Bu yanaşmanın ən yaxşı nümunəsini Türkiyə Cümhuriyyətinin qurucusu Ulu Öndər Atatürkün siyasətində görürük.

Atatürk Milli mübarizəni izləyən illərdə Türk millətinin gələcəyi üçün çox əhəmiyyətli istiqamət təyin etmişdi. Həm Osmanlı Paşası həm də gənc Cümhuriyyətin qurucusu Atatürkün siyasəti, "mədəniyyət təcrübəmizə sahib çıxmaq, Osmanlı ənənəsini müasirləşdirərək 20-ci əsrə ötürmək" olaraq yekunlaşdırıla bilərdi. Atatürk dövrünün o vaxtdakı şərtlərinin imkan verdiyi ölçüdə Osmanlı mirasına sahib çıxdı. Atatürkün qurduğu gənc Türkiyə Cümhuriyyətinin Osmanlı borclarını son qəpiyinə qədər ödəməyi qəbul etməsi və bütün iqtisadi çətinliklərə baxmayaraq bu borcların ödənişlərinə sadiq qalması, Osmanlı mirasına sahib çıxma istəyinin bir göstəricisi idi. Atatürk həmçinin yenə Osmanlı ənənəsi davam etdirilərək, torpaqlarımıza sığınmaq istəyən Türk olmayan müsəlmanlara (məsələn Albanlara, Çərkəzlərə, Boşnaklara) müsbət cavab verilmiş, bu fərqli etnik mənşədən gələn müsəlmanlar tək bir dini şəxsiyyət içində görülmüş və qəbul edilmişdi.

Atatürk eyni zamanda, Balkan sazişi və Səadabad Paktı kimi strukturlarla, keçmiş Osmanlı coğrafisında Türkiyənin nüfuzunu qorumağa çalışmışdı. Balkan sazişi, bəzi Balkan ölkələrini, Səadabad Paktı isə bəzi Orta Şərq ölkələrini Türkiyənin liderliyi altında strateji əməkdaşlığına daşıma məqsədini hədəfləyirdi.

Bu, son dərəcə doğru və yerində bir strategiya idi. Çünki daha əvvəl də ifadə etdiyimiz kimi "dövlət ənənəsini" meydana gətirən ən əhəmiyyətli ünsürlərdən biri cəmiyyətlərin tarixidir. Tarix cəmiyyətlərin yaddaşıdır və hər cəmiyyət dostlarını, düşmənlərini onların tarixləri ilə qiymətləndirər. Tarix dövlətlərə etibar və nüfuz təmin etdiyi kimi, xüsusilə keçmiş imperiyaların varisləri olan millətlərin keçmişdə özlərinə bağlı olan torpaqlarda söz sahibi olmalarının da əhəmiyyətli bir vasitəsidir. Bir zamanlar bir imperiya olan İngiltərə, əsrin əvvəlindən bu yana pilləli şəkildə azalan siyasi və iqtisadi gücünə baxmayaraq, hələ köhnə müstəmləkələri üzərində müəyyən qədər nüfuz sahibidir. Bənzər bir nüfuz əlaqəsi Fransa ilə keçmiş müstəmləkələri arasında da vardır. Fransanın Əlcəzairlə ya da Suriya və Livanla olan əlaqəsinin monarxiya zəmini bu tarixi bağdır. Şübhəsiz əgər İngiltərə öz tarixinə küssəydi və İmperiya olduğu dövrləri qəbul etməsəydi, bu cür bir nüfuz əldə edə bilməzdi. Eyni şəkildə Fransa da keçmişinə üz çevirsəydi, Şimali Afrika və Orta Şərq siyasətində bu gün sahib olduğu təsiri davam etdirə bilməzdi.

Məhz tarixin bu cür təsirli strateji zəmin olması, şübhəsiz ki, Türkiyə baxımından böyük bir üstünlükdür. Çünki Türkiyə bu gün qonşuları olan dövlətlərin çoxunu və daha bir çox dövləti beş əsr boyu idarə etmiş bir imperiyanın varisidir.

Bu gün böyük dövlətlərin Osmanlı tarixini araşdırması və bu mövzuya xüsusi büdcələr ayırmaları əslində bizlərə çox əhəmiyyətli bir şeyi göstərməkdədir. Osmanlı dövləti böyük dövlət olmanın sirrini tapmış və bu sirri 600 illik ömrünün son anına qədər mühafizə etmişdi. Qərbin Osmanlı ilə əlaqədar heç cür qavraya bilmədiyi həqiqət isə bu günün siyasi ədəbiyyatı ilə, Osmanlı İmperiyasının "siyasi əxlaq" (əxlaqi) bir strateji baxışla sahib olması idi. Müstəmləkəçi qüvvələr isə həmişə "həqiqi siyasət" (qatı həqiqətçi) bir baxışla hərəkət etdilər. Buna görə də, əgər qısa zamanda mənfəət təmin edirsə, bir ölkəni uzun müddətdə xaos

və istiqrazsızlığa aparacaq siyasət tətbiq etməkdən çəkinmədilər. Osmanlı isə sahib olduğu torpaqlarda hansı səbəbə olursa olsun xaosa və nizamsızlığa əsla icazə vermədi. Həmişə Quran əxlaqının əmr etdiyi sülh və hüzur mühitini, ədaləti və tolerantlığı yaşatmağa çalışdı.

Məsələn İngilis və Fransız müstəmləkəçiliyi sahib olduğu bu həqiqi siyasət məntiqi nəticəsində ələ keçirdiyi torpaqlarda çox qısa müddətli hakimiyyət qura bildi. Osmanlı fəth etdiyi yerlərdə sadəcə torpağı deyil, könülləri də fəth etməyi bacararkən, bu qüvvələr getdikləri hər ölkədə, elədikləri tətbiqlər nəticəsində yerli xalqın nifrətini qazandılar. Eyni şəkildə üzərində fəaliyyəti olduğu torpaqlarda “nizam” təmin etmək kimi bir məqsədi olmayan Amerika Birləşmiş Ştatları da, getdiyi hər yerə sülh və hüzur yerinə qarışıqlıq və anarxiya gətirdi. Bu gün də, Qərbin və ABŞ-ın strategiyası keçmiş Osmanlı coğrafiyasına sabitlik və hüzur gətirəcək xüsusiyyətdə deyil.

Həmçinin Osmanlılar digər millətlər kimi müstəmləkəçilik zehniyyəti ilə bu torpaqları işğal etməmiş, heç bir məcburiyyət və təzyiq göstərmədən dinlərini yaymağı və müsəlman dünyasını gücləndirməyi məqsəd qoymuşlar. Avropalı güclər ələ keçirdikləri torpaqlarda yaşayan xalqları özlərindən aşağı, bir cür ikinci sinif insanlar olaraq qiymətləndirib, qəddar və zalım siyasət izləyərkən, Osmanlılar sahib olduqları Quran əxlaqına görə hər millətdən insana qarşı ədalətli, anlayışlı və mərhəmətli davranış sərgiləmişlər.

Avropalı dövlətlər bu ölkələrin bütün yeraltı zənginliklərini ələ keçirib, xalqlarını yoxsul edərkən, Osmanlını və ya Səlcuq dövlətini idarə edən Türklər getdikləri ölkələrə zənginlik, rifah və mədəniyyət aparmışlar. Fəth edilən ölkələrə məscidlər, mədrəsələr, karvansaralar, körpülər, bulaqlar düzəltdirmiş, yıxmağı və yox etməyi deyil, yenidən tikməyi hədəfləmişlər. M. Baudierin “Historie də la Religion des Turcs” (Türklərin

din tarixi) adlı əsərində "Türklər mərhəmət, şəfqət və insanlara kömək etməkdə bütün millətlərdən və hətta xristianlardan da üstündürlər"13 sözləri ilə də ifadə etdiyi kimi, Türk milləti fəth etdiyi torpaqlarda yaşayan insanlara gözəl əxlaqı ilə də nümunə olmuşdur.

Müsəlman Türklər başda da ifadə etdiyimiz kimi, fəth etdikləri ölkələrin xalqına, həyat formalarına, inanclarına və dünya görüşlərinə də hörmət göstərdilər. Fəth etdikləri yerlərdə yaşayan insanların özlərinə Allahın bir əmanəti olduğunu düşünən, əsir götürdükləri insanlara qarşı belə insaniyyətlə yanaşan Türk sultanlarının vəzifələri arasında bu xalqları himayə etmək, heç kimin onlara zülm etməməsini təmin etmək də var idi. Allah insan surəsinin 8-ci ayəsində möminlərin özləri ehtiyac içində ikən belə yeməyi əvvəl əsirlərə yedirdiklərini bildirməkdədir. Bu, İslam əxlaqını yaşayan müsəlman idarəçilərin fəth edilən torpaqlarda yaşayanlara qarşı bütün tətbiqlərini formalaşdıran çox əhəmiyyətli bir əxlaq xüsusiyyəti olmuşdur. Necə ki, düşmənlərdən qaçaraq Osmanlı İmperiyasına sığınan İsveç Kralı XII Çarlz (Dəmirbaş Şarl)-ın bir yaxınına yazdığı məktubdakı sözləri də, müsəlman Türk millətinin insani və gözəl əxlaqlı davranışını dilə gətirilmişdir:

**"Şəfqətin, comərdliyin, nəcibliyin, nəzakətin əsiriyəm. Türklər məni məhz bu almaz bağa sarıdılar. Bu qədər şəfqətli, bu qədər nəzakətli bir millətin arasında azad bir əsir olaraq yaşamaq, bilsəydin nə qədər şirindir..."14**

Girdikləri hər yerə mütləq hüzur və asayiş aparan müsəlman Türklər, əksəriyyətlə özlərindən əvvəlki xristian rəhbərlərin despot və zalım tətbiqlərindən çətinlik çəkən xalq tərəfindən coşğun bir sevgi və hörmətlə qarşılanmışlar. Osmanlı dövləti quruluş dövründən etibarən fəth etdiyi torpaqlardakı xristian millətlər ilə həmişə yaxşı əlaqələr qurmuş, onların simpatiyasını qazanmışdır. Məsələn Bursanın fəthindən

sonra şəhəri niyə təslim etdiklərini soruşan Orxan Qazinin Rumlulardan aldığı cavab olduqca təəccüblüdür:

**“Sizin dövlətinizin gündən-günə yüksəldiyini və bizim dövlətimizi keçdiyini anladıq. Atanızın idarəsinə keçən kəndlilərin məmnun qalıb bir daha bizi axtarmadıqlarını gördük və biz də bu rahatlığa həvəs etdik.”15**

Osmanlıların Anadoluda olduğu kimi Rumelidə və digər fəth etdikləri torpaqlarda da Xristian xalqın varlıqlarına və idarə tərzlərinə qarışmamaları, ağır vergilər altında əzilmiş olan xalqın yükünü yüngülləşdirmələri, mövcud qanunlar daxilində heç bir yerli idarəçinin özbaşına tətbiqlər etməsinə icazə verməmələri yerli xalqın razı olmasını təmin etdi. Osmanlı dövləti öz himayəsinə girmiş olan hər kəsin haqq və hüququnu zəmanət altına alırdı.

Necə ki, Qərb tarixçi və siyasət adamlarının qələmə aldığı əsərlərdə də Türk-İslam əxlaqının gətirdiyi ədalət və hüquq anlayışı təriflənmiş, digər müasir sistemlərlə müqayisə edilərək Türk-İslam əxlaqının üstünlüyü dilə gətirilmişdir. Bunlardan İngilis tarixçisi F. Dauni “The Grand Turc, Suleyman the Magnificent” (Böyük Türk, Möhtəşəm Süleyman) adlı əsərində Türklərin ədalətinə və mərhəmətinə sığınan insanlardan bu şəkildə bəhs edər:

**“Bir çox xristian, ədaləti ağır və qərarsız olan xristian ölkələrindəki yurdlarını buraxaraq Osmanlı ölkəsinə gəlib sığınırdılar.”16**

Fransız tarixçi Fernard Grenart isə Türk dövlət anlayışına duyduğu heyranlığı bu sözləri ilə dilə gətirirdi:

**“Osmanlı idarəsinin, fəth edilən məmləkətlər üçün, son dərəcə liberal olduğunu qeyd etmədən keçməməlidir. Bu məmləkətlər əhalisini Türklər**

**dillərində, dinlərində hətta bəzən daxili nizamlarının böyük bir hissəsində tamamilə sərbəst buraxırdılar."17**

Məşhur tarixçi Oskar Kolling isə 1-ci dünya müharibəsi sonrasında Balkan xalqlarının qarşı-qarşıya qaldığı vəziyyət qarşısında Osmanlı idarəsindəki üstün ədalət və hüquq anlayışını bu şəkildə təsvir edir:

**"Bu keçmiş həqiqəti (Osmanlı-Türk ədalət sistemini) Avstriya-Macarıstan İmperiyasının çökdüyü 1918-ci ildə qonşu millətlər bizə yenidən xatırlatdılar. 16-cı əsrdən 340 il sonra humanizm dövründə Macar hüdudunda eyni hadisə təkrarlandı. Lakin belə bir müqayisə edildiyi zaman 16-cı əsr Türk idarəçilərinin, məzlum xalqın hüququnu qorumaq üçün səyləri qarşısında əyilmək arzusunu duyuruq."18**

Kolling bu sətirlərin davamında dövrün Avropa dövlətləri ilə Türk Dövləti arasındakı anlayış fərqini də bu şəkildə dilə gətirirdi:

**"...Avropada sülh dövründə belə inkvizisiya məhkəmələri və edam vasitələri fəaliyyətdə olurdu. Xüsusilə muzdlu əsgərlərdən təşəkkül edən ordu toplandığında xalq bütün malı ilə birgə zülm aləti halına gəldi. Bunlar heç bir vicdan əzabına düşmədən irqdaşlarını soyar, əzər, öldürərdilər. Halbuki Türk hökmdarları həqiqətən xalqın həyatı ilə maraqlanıblar. Göndərdiyimiz vəsiqələrin surətləri də şübhəyə yer buraxmayacaq şəkildə bunu göstərməkdədir."19**

Şübhəsiz Osmanlının əsrlər boyu ədalət anlayışında heç bir əyrilik olmamasının ən əhəmiyyətli səbəbi bu ədalət anlayışını Quran əxlaqından öyrənmiş olması və Qurana olan bağlılığıdır. Quranda təsvir edilən ədalət anlayışı müsəlmanları qarşı tərəfə qəzəbli olsalar belə, qəzəblərinə maneə törədib ədalətli edən bir anlayışdır. Ayədə belə buyurmaqdadır:

> *Ey iman gətirənlər, Allah üçün ədaləti təmin edən şahidlər olun! Bir qrup insana qarşı bəslədiyiniz kin sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah sizin etdiklərinizdən xəbərdardır.*
>
> **(Maidə surəsi, 8)**

Buna görə də, bu gün sözü gedən coğrafiyada yaşayan millətlərin hamısı Türklərin ədalətinə, tolerantlığına və özlərinə təmin etdikləri sülh mühitinə şahidlik etmişlər. Bu vəziyyət hər dindən və hər irqdən insanın Türklərin rəhbərliyindən razı olmaları ilə nəticələnmişdir. İndiki vaxtda isə, illərdir bu torpaqlarda davam edən müharibə, xaos və nizamsızlığa görə hüzura, təhlükəsizliyə və sülhə həsrət qalmış olan qadınlar, uşaqlar, yaşlılar, yeni bir "Osmanlı"nın həsrəti içərisindədirlər.

## Əcnəbi gözü ilə Türklər və Osmanlı

"Türklər irq və millət olmaq şərəfi ilə yer üzünün ən şanlı insanlarıdır. Xarakterləri çox nəcib və ucadır... Nəciblik alınlarında və əməllərində yazılıdır... Onların yurdu əfəndilər diyarıdır, qəhrəmanlar, şəhidlər ölkəsidir. Məncə insaniyyətə şərəf verən belə bir millətin düşməni olmaq insanlığın düşməni olmaqdan fərqsizdir. Belə bir ləkədən Allah məni qorusun."20

### (Fransız şair Lamartine)

"Bəlkə də yaxında himayəyə möhtac olacaqsınız. Heç vaxt Rusiyaya yanaşmanın, xaindir, sizi yox edər. Lakin özünüzü Osmanlılara əmanət edin, ədalətli və mərhəmətlidirlər."21

"Boğdan bəyi Böyük Stefanın oğullarına vəsiyyəti, 27 il əvvəl bəzi protestant Fransızlar padşahın ölkələrindən birinə sığınmağı hazırladılar. Bu qərarlarının birinci səbəbi katolik Fransanın protestant fransızlara qarşı davamlı zülmü, ikinci səbəbi isə Türklərin bütün dinlərə qarşı dünyəviliyi və dəyişməz tolerantlıq idi."22

## (Cenevizli Chenier)



“Sizin kimi gözü doymaz şahzadələrin, torpaq ağalarının və burjuaların idarəsi altında yaşamaqdansa, Osmanlıların idarəsi yoxsullara daha xeyirlidir.”23

“Protestant məzhəbinin qurucusu Martın Luther 1526-cı ildə (Mohaça gedən) 200.000 adam, əkilmiş tarlalara ayaq basmadan və tək bir ot

qoparmadan imperatorluğun Rumeli yaxasını bir başdan o biri başa keçmişdir."24

### (Fransız yazar J. Michelet)

"Türk hakimiyyətindən yerli xristianlar bu baxımdan da məmnun idilər ki, Türklər gəlmədən əvvəl ölkələri davamlı ictimai pozğunluq və təxribat içində idi. İndi isə sakitlik hökm sürürdü... Vyana təxribatından sonra Venediklilər müvəqqəti Sakız və Morayı işğal etdilər. O qədər zülm etdilər ki, Sakız və sonra Moraya Türklər geri qayıdanda yerli Rumlar onları böyük sevinclə qarşıladılar."25

### (Fransız tarixçi Fernard Grenard)

"Padşahın imperatorluğunda hər kəs öz halında bəxtiyar ola bilərdi. Mütləq bir dini azadlıq hökm sürərdi və kimsə bu və ya başqa inanca sahib olduğundan ötəri çətinliklə qarşılaşmazdı."26

### (Məşhur türkoloq Franz Babinger)

## Türk dövlətlərini müvəffəqiyyətli edən islam əxlaqının təməlləri

> *Onlar o kəslərdir ki, əgər onlara yer üzündə hakimiyyət versək, namaz qılar, zəkat verər, yaxşılığı əmr edər və pislikdən çəkindirərlər. Bütün işlərin sonu Allaha aiddir.*
>
> **(Həcc surəsi, 41)**

> *Allah sizə əmanətləri sahiblərinə (işi əhlinə) verməyinizi və insanlar arasında hökm verdiyiniz zaman ədalətlə hökm verməyinizi əmr edir. Allah bununla sizə necə də gözəl nəsihət verir! Şübhəsiz ki, Allah hər şeyi eşidəndir, görəndir.*
>
> **(Nisa surəsi, 58)**

> *Allah sizinlə din uğrunda vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyinizi və onlara qarşı ədalətlə davranmağınızı qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir.*
>
> **(Mumtəhənə surəsi, 8)**

*Hikmətlə və gözəl nəsihətlə Rəbbinin yoluna dəvət et! Onlarla ən gözəl şəkildə mübarizə apar! Şübhəsiz ki, Rəbbin yolundan azanları da, doğru yolda olanları da ən yaxşı tanıyandır.*

**(Nəhl surəsi, 125)**

*Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz çevir!*

**(Əraf surəsi, 199)**

*Allahın, gözəl bir sözü, kökü (yerdə) sabit duran, budaqları isə göydə olan gözəl bir ağaca bənzədərək necə bir misal çəkdiyini görmədinmi?! O (ağac), Rəbbinin izni ilə hər zaman bar verər. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alalar.*

**(İbrahim surəsi, 24-25)**

*O (müttəqilər) ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) infaq edər, qəzəblərini udar və insanları bağışlayarlar. Allah yaxşılıq edənləri sevər.*

**(Ali İmran surəsi, 134)**

> "Yaxşılıq və pislik eyni deyildir. Pisliyi daha yaxşı olanla dəf et! Bu zaman səninlə arasında düşmənçilik olan kimsə sanki yaxın bir dost olar.
>
> **(Fussilət surəsi, 34)**

## Mirasımızın bizə yüklədiyi tarixi məsuliyyət

Bura qədər ələ aldığımız həqiqətlərin bizə göstərdiyi kimi, Türkiyə həm coğrafi və strateji mövqeyi, həm də almış olduğu tarixi mirası etibarilə Balkan yarımadasının, Qafqazın, Orta Şərq və Orta Asiyanın gələcəyində liderliyi boynuna ala biləcək bir ölkədir. Milyonlarla insanın həsrətini duyduğu sülh və hüzur mühitini təmin edə biləcək zəngin bir tarixi təcrübəyə malikdir. Coğrafi mövqeyi etibarilə həm Asiyalı, həm Avropalı, həm Orta Şərqlidir. Götürdüyü tarixi miras etibarilə də bütün bu sahələrdə təxmin ediləndən daha çox fəaliyyətə və gücə malikdir. Yüzlərlə fərqli mədəniyyətin və etnik qrupun sığındığı bu torpaqlarda, sahib olduğu Osmanlı mirası gərəyi söz sahibidir. Necə ki, soyuq müharibədən sonra təsis edilən yeni dünya sistemində, başda Amerika olmaq üzrə, bir çox ölkənin də tələbi ilə Türkiyə bu torpaqlarda aktiv rol almaq vəziyyətində qalmışdır.

Türkiyənin sahib olduğu tarixi miras, siyasi, hərbi, iqtisadi potensiala görə bir çox Qərb ölkəsi bu region üzərində inkişaf etdirdikləri strategiyaların Türkiyə istiqamətli və hətta Türkiyə mərkəzli olması gərəyinin fərqindədir. Necə ki, ABŞ-ın keçmiş rəhbəri Bill Klintonun 1999-cu ilin son aylarında “Georgetown” Universitetində etdiyi bir çıxış da bu fikri dəstəkləyən xüsusiyyətdədir. Bir anda bütün dünya ölkələrinin diqqətini təkrar Türkiyə üzərinə çevirmələrinə səbəb olan bu məşhur çıxışda Klintonun xüsusilə, “20-ci əsri necə Osmanlının süqutu təyin etdisə, 21-ci əsrdə də Türkiyənin təsirli rol oynayacağı” mənasını verən sözləri son dərəcə əhəmiyyətli bir təsbiti ehtiva etməkdədir. Klintonun bu sözlərini “Türkiyə, Avropanı, Asiyanı və Afrikanı içinə alan milyonlarla km2-lik sahədə, dünya siyasətinin mərkəzi olan bir bölgədə söz sahibi ölkə olduğu üçün 21-ci əsrin şəkillənməsində kilid rol oynayacaq”

şəklində açə bilərik (Bill Klinton bənzər mesajları 1999-cu il noyabr ayında Türkiyə səfəri əsnasında Türkiyə Milli Məclisindəki çıxışında da demişdir). ABŞ kimi super bir gücün liderinin, Türkiyə üçün 21-ci əsrdə belə bir diaqnoz qoyması şübhəsiz çox diqqət çəkicidir.

Bu gün bu bölgələrə hüzurun və sükunətin yerləşə bilməsinin tək yolu, Türkiyənin varisi olduğu Türk-İslam əxlaqı ilə yoğurulmuş olan "Osmanlı Millət Sistemi"nin hakim olduğu bir anlayışın yaradıla bilməsidir. Əvvəlki bölümlərdə də geniş izah etdiyimiz kimi, Osmanlı Millət Sistemində, dövlətin qoruyucu çətiri altına girən hər millət ya da birliyə, öz inanc və ənənəsinə görə yaşama haqqı tanınar və təməl hüquqları qoruma altına alınardı. Türklər istər Balkan yarımadasında, istər Qafqazda, istər Orta Şərqdə olsun getdikləri heç bir ölkədə heç kimin dinini və adətini dəyişdirməyə məcbur etməmişlər və heç kimə dinindən ötrü zülm etməmiş, heç kimi xor görməyiblər. Hər dindən, hər məzhəbdən insan ibadətini istədiyi kimi yerinə yetirmiş, öz adət və ənənə tətbiqlərində heç kim bir başqasına qarışmamışdır. Bunun qarşılığında xarici qüvvələr tərəfindən hər hansı bir hücum olanda isə bu torpaqlarda yaşayanlar da sevərək və istəyərək rəhbərliyindən məmnun qaldıqları Osmanlı dövlətinin yanında yer almışlar. Beləcə xarici təhlükəsizlik və iqtisadiyyat başda olmaq üzrə bir çox sahədə təbii bir ittifaq meydana gəlmiş, həm Osmanlı dövlətinin, həm də milliyyəti altında yaşayanların fayda verdiyi möhkəm bir struktur yaradılmışdır.

Avstriyalı türkoloq Anton Cornelers Schaendinger də Türklərin dövlət anlayışını və bu anlayışın dünyanın bir çox bölgəsinə gətirdiyi rifah və hüzurun, başqa heç bir hökmdarlıq dövründə təmin edilə bilmədiyini belə dilə gətirmişdir:

**"İskəndər Şərqə və Hində qədər yayıldı. Daraz Şərqdən Qərbə uzandı. Çingiz Xan Avropanın ortalarına qədər at çapdı. Lakin heç biri Osmanlı**

**Türkləri kimi digər insanların mədəniyyət və din azadlığına hörmət göstərmədilər. Osmanlılar xariqülada bir nizam və tarazlıqda əsrlərlə özlərindən olmayan insanlarla sülh içərisində yaşadılar. Buna görədir ki, Avropada dörd əsr boyunca qala bildilər."27**

Anton Schaendinger kimi Türklərə heyran qalan bir başqa tarixçi yunan Michel de Greecenin sözləri isə çox diqqət çəkicidir. Osmanlının Balkan torpaqlarından çəkilməsi ilə başlayan çətin və sıxıntılı günlərə, bəlkə də atalarının şəxsən şahid olduğu Yunanıstan, bu torpaqlarda tək həllin Osmanlı bənzəri bir inzibati sistem olduğunu, bu gün yaşanan qarışıqlıqları da nümunə verərək izah etməkdədir:

**"Osmanlı dövlətinin süqutundan çox kədərlənirəm. Çünki Osmanlı dövləti dünyanın tarazlığına dəstək olan bir qüvvə olmuşdu və sevilsin ya da sevilməsin, Osmanlının süqutundan etibarən Balkan yarımadası və Orta Şərqdəki dalğalanmalar dayanmaq bilmədi."28**

Balkan yarımadasında yaşayan, bu torpaqların təbiətini və keçmişini yaxşı bilən bir tarixçinin belə bir diaqnozu son dərəcə əhəmiyyətlidir.

Türkiyə eynilə Osmanlının etdiyi kimi Balkan yarımadasını və Orta Şərqdəki fərqli etnik şəxsiyyət və dinləri qucaqlayan bir strategiya yaratmalıdır. Yaradılacaq bu strategiyanın dayaq nöqtəsi isə Türk-İslamın köklü mədəniyyətimizin yenidən kəşf edilməsi olmalıdır. Necə ki, bu torpaqlarda siyasi cəhətdən olmasa belə, mədəniyyət olaraq Türk hakimiyyəti hələ də davam etməkdə, xüsusilə Balkan yarımadasında və Qafqazda fərqli millətlərdən olmalarına baxmayaraq bir çox müsəlman özünü Türk və Osmanlı hesab etməkdədir.

Bir çox tarix alimi və siyasətçi də bu həqiqəti qəbul etməkdə və yazdıqları məqalələrdə bu nöqtəyə diqqət çəkməkdədirlər. Bu kəslərdən biri də dünyaca məşhur Orta Şərq mütəxəssisi Prof. Dr. Edward Saiddir. Qüdslü

xristian bir ailəyə mənsub olan Edward Said, İsraildə çap olan "Haaretz" qəzetində nəşr olunan reportajında Orta Şərqdə qalıcı bir sülhün inşa edilə bilməsi üçün "Osmanlı Millət Sistemi"ni təklif etmişdir.29 Ari Shavitin reallaşdırdığı bu reportajda Osmanlı Millət Sistemini bir cür zərurət olaraq görən Edward Said, bu mövzuda son dərəcə haqlıdır. Çünki bütün tarix boyu Orta Şərq və Balkan yarımadasında ən uzun ömürlü rəhbərliklər Osmanlılar dövründə qurulmuş, Romalıların belə təmin edə bilmədiyi davamlılıq və bütövlük müsəlman Türklər tərəfindən əsrlərlə qorunmuşdur.

Prof. Dr. Edward Saidin Orta Şərq sülhü üçün dilə gətirdiyi təklifin bir bənzərini məşhur tarixçi Jason Goodwin də "New York Times"daki "Osmanlıdan öyrənəcəklərimiz" başlıqlı yazısında Balkan yarımadası üçün təklif etməkdədir. Osmanlının Balkan yarımadasında din, dil və etnik fərqlərin olduqca çox olmasına baxmayaraq, hökm sürdüyü 14-cü əsrdən 19-cu əsrə qədər heç bir zaman məhdudlaşdırma etmədiyini və bu şəkildə sabitliyi və nizamı təmin etdiyini söyləyən Goodwin, bu gün hüzuru təmin etməyi bölgəyə hərbi güc yığmaqdan ibarət görən Qərb qüvvələrin Osmanlıdan öyrənəcəkləri çox şey olduğunu dilə gətirməkdədir.30

Bilindiyi kimi təxminən son 50 ildir dünyanın ürəyi "Osmanlı hinterlandı" olaraq da adlandırılan Orta Şərqdə atmaqdadır. Əgər bu zonada yer alan ölkələr, bu gün dünyanın gələcəyində bu qədər vacib əhəmiyyətə sahibdirlərsə, bu vəziyyətdə Osmanlının varisi olan Türkiyə Cümhuriyyətinin də bu müddətdə kilid rol oynaması labüddür.

Bunu da ifadə etməliyik ki, əlbəttə bu kitabda izah edilən strategiya, Osmanlı dövlətinin yenidən qurulması deyil. Əhəmiyyətli olan Osmanlı millət və dövlət anlayışının hakim olduğu, insanların dost və qardaşca yaşaya bildiyi, sülh və güvən dolu bir mühitin yenidən yaradıla bilməsi,

güclü iqtisadi və siyasi birliyin təsis edilməsidir. Çünki Osmanlı rəhbərliyi və təcrübəsi, istənildiyində qarşıdurmaların mərkəzi halına gəlmiş olan bu regiona hüzurun və sülhün gətirilməsinin mümkün olduğunu bizlərə göstərmişdir. Bu gün birlik meydana gətirmə istiqamətində atılacaq konkret addımlar, bölgə dövlətləri tərəfindən də qəbul ediləcək. Üstəlik bu birlik dünyanın ən inkişaf etmiş mədəniyyətini, ən zəngin torpaqlarını və üstün mədəniyyətini də içində saxlayan, 21-ci əsrə damğasını vuracaq olan bir birlik olacaq. Bu birliyin liderliyini edə biləcək tək millət isə heç şübhəsiz Osmanlının varisi olan Türk millətidir.

FƏSİL

# Türk dünyasında mövcud vəziyyət

Türk Dünyası deyildiyi zaman ancaq Orta Asiyada SSRİ-nin dağılmasından sonra qurulan Türk dövlətlərini düşünmək səhv olar. Çünki Türk dünyası “Adriatikdən Çin səddinə qədər” anlayışı ilə təsvir edilən çox geniş bir sahəni əhatə etməkdədir. Bu geniş coğrafiyada yaşayan fərqli etnik mənşələrə sahib olan birliklər tarix boyu həmişə Türk-İslam əxlaqının çətiri altında toplanmışdır. Özbək, Qazaq, Uyğur, Tatar, Çərkəz, Abxaz, Boşnak, Çeçen və başqa birlikləri tək bir hədəf, tək bir idealda birləşdirən, bu torpaqlarda hələ varlığını davam etdirən Türk-İslam mədəniyyətinin mirasıdır.





Osmanlı dövlətinin sahib olduğu siyasi sərhədlər daxilində bu gün onlarla müstəqil dövlət var və bunların hər birində Osmanlı mədəniyyətinin izlərini daşıyan yüzlərlə əsər və güclü mədəniyyət mirası vardır. Üç qitəyə yayılan Osmanlı nizamı 20-ci əsrdə bəzi xarici müdaxilələrlə siyasi varlıq olaraq ləğv edilmişdir. Ancaq Osmanlının tarixdən silinməsi ilə meydana gələn boşluğu, üzərindən keçən bir əsrlik zamana baxmayaraq, hələ hər hansı bir güc doldura bilməmişdir. Bu günə qədər Fransa, İngiltərə,

Amerika, Rusiya kimi bölgə xaricindən qüvvələr tərəfindən Osmanlı hinterlandına müxtəlif müdaxilələr edilmişdir. Bu ölkələr Osmanlının izini silmək və bu bölgədə hakim olmaq üçün illər boyu çox çətin mübarizələr veriblər. Amma bu bölgələrə yad olan xarici qüvvələrin, keçmiş Osmanlı torpaqlarında hüzuru və sülhü təmin etmələri, güclü bir dövlət meydana gətirmələri heç bir dövrdə mümkün olmamışdır. Kukla rəhbərliklər, masa başında çəkilən xəritələr, süni qarşıdurmalar, embarqolar, heç bir dövrdə müvəffəqiyyətli ola bilməmiş, bu ölkələr sanki bədənə düşən yad bir maddə kimi həmişə çölə atılmışlar və heç bir dövrdə arxalarında region xalqlarının dəstəyini tapa bilməyiblər.

Osmanlı İmperiyasının siyasət səhnəsindən silinməsi ilə birlikdə başlayan qarışıqlıq və xaos, təxminən bir əsrdən bu yana davam etməkdədir. Region xalqları uzun illərdir müharibələrin və qarşıdurmaların altında əzilməkdədir. İki dünya müharibəsi görən və bu müharibələrlə birlikdə aclıq, köç və epidemiya xəstəlikləri ilə qarşı-qarşıya qalan xalqların böyük əksəriyyəti də müharibələrdən sonra kommunist idarəetmənin despot və şiddət tətbiqləri altında əzilmişlər. Soyuq müharibə dövrünün sona çatması ilə birlikdə başlayan etnik qarşıdurmalar nəticəsində isə çox daha dərin və şiddətli acılarla qarşı-qarşıya qalmışlar. 1990-ların əvvəlindən etibarən Balkan yarımadasında və Qafqazda başda qadınlar, uşaqlar və yaşlılar olmaq üzrə günahsız xalq müharibələrin və qızğın qarşıdurmaların təzyiqi altında əzilməkdədir. Orta Şərqdə isə işğalçı İsrail qüvvələrinin başlatdığı işğal və zülm 50 ildən çoxdur ki, heç dayanmadan hökm sürməkdədir.

Məhz bu problemlərin tez bir zamanda həll edilməsini və Osmanlı coğrafiyasında yenidən sabitliyin təmin edilməsinin ilk addımı regiondakı mövcud vəziyyətin çox yaxşı qavranması olmalıdır. Çünki istər Orta Şərq, istərsə də Qafqaz və Balkan yarımadası sahib olduqları coğrafi və strateji əhəmiyyəti ilə bir çox ölkənin maraq dairəsinə girməkdədir. Bu

baxımdan siyasi və iqtisadi mənfəətlərin çox yaxşı qiymətləndirilməsi, həll yollarının təsbit edilməsi və çox istiqamətli bir strategiyanın təyin olunması son dərəcə əhəmiyyətlidir. Problemlərin doğru formada təsbit edilməsi çözümə çatmaqda ən əhəmiyyətli mərhələ olacaqdır. Buna görə də, bu zonalarda son vəziyyətin ümumi təhlilini etmək çox əhəmiyyətlidir.

FƏSİL 3

# Balkan yarımadasını başa düşmək

"İgidlərim, bu gün sizin sevginizlə titrəyən bu Kosovo meydanı, Allahın icazəsi ilə müzəffər bir şəkildə dalğalanacaq olan şanlı bayrağımızın Macarıstanın içinə doğru getməsini, bundan sonra heç bir düşmənin hücumu dayandıra bilməyəcək."31














Avusturya Macaristan
İmparatorluğu
Rusya
Bosna
Hersek
Romanya
Sırbistan
İtalya
Karadağ
Bulgaristan
Karadeniz
Arnavutluk
Makedonya
Yunanistan
Ege
Denizi
Osmanlı İmparatorluğu
Akdeniz






Bekanntmachung


С ВЕРОМ У БОГА
ЗА КРАЉА И ОТАЏБИНУ







**(Murad Xudavəndigarın Kosovo meydan döyüşündə əsgərlərə etdiyi çıxışdan)**

Balkan yarımadasında bu günə qədər olub bitənlər və gələcəkdə ola biləcək hadisələr haqqında doğru fikir əldə etmək və hadisələri doğru prizmadan qiymətləndirə bilməyin yolu Türkiyənin bölgə ilə tarixi əlaqələrini doğru təsbit etməkdən keçir. Buna görə də, Türklərin Balkan yarımadasına gəlməsi qədər, bu torpaqlardan hansı formada və hansı məqsədlə çıxarılmağa çalışıldıqlarını da yaxşı qavramaq lazımdır.

Türklər Balkan yarımadasına ilk addımı Süleyman Paşa əmrindəki Osmanlı ordusunun 1353-cü ildə Çanaqqala Boğazını keçib Rumeli

torpaqlarını fəthi ilə atdı. 1389-cu il Kosovo döyüşü isə bir tərəfdən Serbləri tarixi məğlubiyyətə məhkum edərkən, digər tərəfdən Balkan yarımadasında Osmanlının məğlub edilməz bir qüvvə olduğu həqiqətini ortaya qoydu. 1521-ci ildə Qanuninin Belqradı alması ilə demək olar ki, bütün Balkan yarımadası Türklərin hakimiyyətinə keçmiş oldu. Ancaq bu, Türklərin Balkan yarımadasındakı ilk hakimiyyəti deyildi.

Əslində bölgəyə ilk gələn Türk qövmü Hunlar idi. Ancaq Balkan yarımadasına Bizansı məğlub edərək Qərbi Roma üzərindən gələn Hunlar, bu bölgədə uzun müddətli hakimiyyət qura bilmədilər. Hunlardam sonra gələn Avar Türkləri isə Balkan yarımadasında geniş torpaqları fəth edərək, təxminən 250 il davam edən bir hökmranlıq dövrü yaşadılar. Ancaq Avarlar 8-ci əsrin sonunda xristianlığı qəbul edərək Slavlaşdılar və tarixdən silindilər. Avarlardan sonra da köçəri Türk boylarının Balkan yarımadasına axınları davam etdi. Ancaq zaman ərzində Slav xalqı arasında assimilyasiya olub yox oldular.32

Osmanlılar isə heç vaxt assimilyasiya olmadılar. Əksinə, fəth etdikləri hər coğrafiyaya öz şəxsiyyətlərini daşıdılar. Bunun ən böyük səbəbi İslam dinidir. İslamdan əvvəl Türklər güclü bir mədəniyyətə sahib olmadıqları üçün fəth etdikləri torpaqlarda həm hərbi, həm də mədəni olaraq qalıcı ola bilməmişdilər. Halbuki İslamın qəbulundan sonra Türklər “assimilyasiya olan” deyil “assimilyasiya edən” bir millət oldu. Bunun ən güclü nümunələri isə Osmanlı tarixində ortaya çıxdı.

Məsələn Osmanlılar İslam sayəsində Balkan yarımadasında qalıcı ola bildilər. Balkan yarımadasında Qanuni Sultan Süleymanın Belqradı alması ilə möhkəmlənən Osmanlı hakimiyyəti, bölgədəki müxtəlif xristian xalqların zamanla və öz razılıqları ilə İslamı qəbul etməsinə vəsilə oldu. Bundan əlavə Osmanlı rəhbərliyi bölgəyə əsrlər sürən sabitlik və sülh gətirdi. Din, dil və irq baxımından çox qarışıq bir quruluşa sahib

olan Balkan yarımadasında Osmanlının rəhbərlik tərzi bütün bu fərqlilikləri bir-birləri ilə qaynaşdırma təməli üzərində qurulu idi. Balkan yarımadasının coğrafi quruluşu etibarı ilə hər dövrdə mühafizə edilən fərqli mədəniyyətlər, tarix boyu ancaq Osmanlı dövründə bir yerdə hüzur və təhlükəsizlik içində yaşadılar.

Bu tarixi həqiqət, Osmanlı arxivlərində yer alan sənədlərlə də gün üzünə çıxmaqdadır. Prof. İsmət Miroğlunun "Türklərdə insani dəyərlər və insan haqları" adlı araşdırmasında yer verdiyi sənədlər Balkan xalqlarının Osmanlı rəhbərliyindən duyduqları məmnuniyyəti gözlər önünə sərməkdədir. 12 fevral 1867-ci il tarixində yazılmış olan başqa bir sənəddə Bolqar Millətinin Osmanlı idarəsindən məmnun olduqları belə ifadə edilir:

**"Bolqar milləti beş yüz ildən bəri Osmanlı idarəsi altında xoşbəxt olaraq yaşamaqdadırlar. Bu müddət ərzində mal, can və dinləri fəsadçıların və pis insanların təcavüzündən mühafizə edilmişdir. Halbuki digər məmləkətlərdə yaşayan gücsüzlər və yoxsullar, zənginlərin hücumlarına və zülmünə məruz qaldıqları kimi, onlara hər cür haqsız rəftar da rəva görülmüşdür. Çünki Osmanlı idarəsi altında yaşayan qüvvətlilər tərəfindən gücsüzlərə heç bir şəkildə əziyyət edilməmiş, güclülər və zəiflər dövlətin bəxş etdiyi haqq və ədalət eyni nisbətdə faydalanmışlar. Osmanlı idarəsindəki xristianlar arasında din və məzhəblər fərqi görülməyərək hamısı ilə eyni cür rəftar edilmişdir."**33

Bu hüzur və sabitlik, 19-cu əsrin əvvəlində inkişaf edən xalq-dövlət anlayışının Qərb qüvvələr tərəfindən bu torpaqlarda qızışdırılan müstəqillik hərəkətlərini alovlandırmasına qədər sürdü. 19-cu əsr boyu, xarici qüvvələrin təhriki ilə, bölgədəki müsəlman olmayan millətlər arasında daxili üsyanlar başladı. Üsyanların ilk siyasi nəticəsi, Yunanıstanın 1829-cu ildə müstəqilliyini elan etməsi oldu.

Başda serblər olmaq üzrə müsəlman olmayan xalqlar arasındakı üsyan hərəkətlərində, Rusiyanın istiqamətləndirdiyi panslavizm hərəkəti təsirli oldu. Bilindiyi kimi bu axın slavyan irqinin üstünlüyünü, mədəni və siyasi olaraq birlikdə hərəkət etməsi lazım olduğunu qarşıya qoymaqda idi. Buna görə xüsusilə Osmanlı torpaqlarında yaşayan slavyan mənşəlilərin milliyyətçilik duyğuları təhrik edilərək, Osmanlı əleyhinə üsyan etmələri təmin edilirdi.

Yenə bu axından təsirlənən bəzi birliklər də daha rahat bir həyat ümidi ilə Rusiyaya köç etdi. Ancaq qısa müddət ərzində nə qədər çox yanıldıqlarını anlamağa başladılar. Panslavizm təbliğatından təsirlənərək Rusiyaya köç edən bolqarların 30 yanvar 1862-ci ildə Osmanlı dövlətinə geri dönə bilmək üçün padşaha yazdıqları bir məktub bu peşmançılığı açıqca ifadə etməkdədir. Bu məktub, bir tərəfdən bolqarların Osmanlı torpaqlarından köç etdikləri üçün duyduqları dərin peşmançılığı dilə gətirərkən, bir tərəfdən Osmanlının Qərb qüvvələr tərəfindən yeri doldurulması mümkün olmayan ədalət və dövlət anlayışını gözlər önünə sərməkdədir:

**“Əcdadımız Osmanlı idarəsi altında rahat və hər cür nemət və ədalətlə dolu bir həyat sürmüş ikən bizlər, Rusiyaya getməklə təəssüf ki, bir tələyə düşmüş olduq. Saf insanlar olduğumuz üçün əleyhimizə tərtib edilən bu hərəkətin sonunu düşünmədik və bu işi bilərək etmədik... Gecə gündüz peşmanlıq göz yaşları tökürük. Çünki burada heç kim üzümüzə baxmır... Bizlər kimi aldadılan Bolqar həmyerlilərimiz ilə birlikdə bağışlanılaraq təkrar Osmanlı torpaqlarına dönə bilməyimiz barədə sizə yalvarırıq.”34**

Osmanlı dövründəki istiqrar və bütövlük bölgəyə sabitlik gətirmiş, həm bölgə xalqının həyat keyfiyyətini yüksəltmiş, həm də xarici qüvvələrin hücumlarına qarşı kiçik-böyük bütün etnik mənşələri ortaq müdafiəsi altına almışdı. Məhz bu səbəblə də istər Osmanlının varlığından, istərsə

də Balkan xalqlarının birlik olaraq meydana gətirdikləri böyük gücdən çəkinən xarici qüvvələr, uzun müddət bu bölgədən uzaq dayanmışlar.

Ancaq əsrin son dörddə birində Rusiyanın və Qərb ölkələrin yayılma ehtirasları yenidən qabardı. 1877-78 Osmanlı-Rus müharibəsindən sonra təşkil edilən 1878-ci ildəki Berlin konqresi ilə, Balkan yarımadasındakı Osmanlı torpaqlarının əhəmiyyətli bir hissəsi Osmanlı İmperiyasının rəhbərliyindən çıxdı. Bolqarıstanın böyük hissəsi Osmanlı idarəsindən qopdu. Ruslar Bessarabiya bölgəsini ələ keçirdilər. Serbiya, Monteneqro və Rumıniya müstəqil bir dövlət oldu. Bosniya və Herseqovina isə, Osmanlı rəhbərliyində qalmaqla birlikdə "nəzəri" cəhətdən Avstriya-Macarıstan torpağı halına gəldi. Eyni zamanda Kipr və Süveyş də İngilislərə verildi. Berlin Konqresi əvvəlində və sonrasında, Osmanlının parçalanması və paylaşılması, dövrün Avropa dövlətlərinin və Rusiyanın xarici siyasətinin təməl hədəfi oldu. Qərb ölkələr üçün Avropa ilə Asiya arasındakı strateji Osmanlı bölgələrini ələ keçirə bilmək ayrı bir əhəmiyyət ifadə etməkdə idi. Bu məqsədlə, onlarla fərqli dil, irq, məzhəb və etnik mənşədən ibarət olan Balkan xalqlarını bəzi milliyyətçi xəyallara qapdırıb təhrik etmək isə heç çətin olmadı. Osmanlı dövründə iç-içə keçmiş, sakit və sabit həyat sürən bu toplumlar, məsələn serblər, bolqarlar və ya yunanlılar müxtəlif təhrik etmələrlə separatçı və quldur cəmiyyətlərə çevrildilər.

Həqiqətdə Balkan xalqları qısa müddət ərzində Avropa dövlətlərinə və Ruslara güvənərək yola çıxmaqla tarixin ən böyük səhvlərindən birini edirdilər. Çünki Osmanlının getməsi ilə müstəqil və güclü bir dövlət halını alacaqlarını zənn edən Balkan xalqları üçün əsas problemlər yeni başlayacaqdı. Eynilə Osmanlının əvvəlində olduğu kimi Balkan xalqları təkrar parçalara ayrılacaq və illərlə bir yerdə və qardaşca yaşayan topluluqlar bir-birləri ilə savaşmağa başlayacaqdılar. Balkan dövlətlərinin, Osmanlıya qarşı təşkil etdikləri 1-ci Balkan

müharibəsindən sonra, öz aralarında anlaşılmazlığa düşüb 2-ci Balkan müharibəsinə girişmələri, bu tarixi həqiqətin ən açıq dəlili olacaqdı.

1-ci Dünya müharibəsi sonrasında Avropa dövlətlərinin masa başında meydana gətirdikləri süni sərhədlərə sahib xalq dövlətləri, yaxınlaşan böyük fırtınanın xəbərçisi idi. 2-ci dünya müharibəsində başdan aşağı Alman və İtalyan ordularının işğalı altında qalan və vətəndaş müharibələri ilə çalxalanan Balkan ölkələri, müharibələrin sonunda kommunist Sovet rejiminin idarəsinə tərk edildilər. Kommunist idarələr altında illərlə təzyiq, şiddət və işgəncəyə məruz qalan, dinlərini yaşamalarına maneə törədilən Balkan millətləri, böyük acılar çəkdilər. Kommunist rejimin diktatura rəhbərliyi ilə pərdələnən etnik mənşəli mübarizə və qarşıdurmalar, bu rejimlərin süqutu ilə birlikdə qaldığı yerdən və daha şiddətli formada başladı.

## Bitmək bilməyən müharibələrin qaynağı

Balkan yarımadasını anlaya bilmək üçün bölgədəki Türk-İslam tarixi ilə birlikdə, bölgənin strateji və coğrafi əhəmiyyəti üzərində də dayanmaq lazımdır. Böyük hissəsi dağlıq və qayalıq olan, dərin vadilərlə parçalanmış və sıx bitki örtüyü olan Balkan yarımadasında coğrafi quruluş olaraq rabitə və nəqliyyat həmişə çətinliklə təmin edilmişdir ("Balkan" sözü də, "dağlıq bölgə" mənasını verir). Nəqliyyat və rabitənin zəifliyi isə, bir-birlərinə qonşu olaraq yaşamalarına baxmayaraq, mədəni yöndən bir-birindən çox uzaq, hətta bir-birinə düşmən xalqlar meydana gətirmişdir. Etnik fərqliliklərə, mədəni fərqliliklər də əlavə olunduqda düşmənliklər daha da artmış, Balkan yarımadası qeyri-sabitliyə açıq bölgə halına gəlmişdir. Balkan yarımadasında əsrlər boyu yüzlərlə dövlətin qurulmasının və yüzlərləsinin yox olmasının ən əhəmiyyətli səbəblərindən biri fərqlilikləri düşmənçiliyə çevirən bu mühafizəkar və içinə qapalı Balkan mədəniyyətidir.

Qarşıdurmaların alovlanmasının altında yatan səbəb isə, müstəqilliyini elan edən ölkələrdə bir-birinə düşmən və bir yerdə yaşamaq istəməyən azlıqların yer alması olmuşdur. Balkan yarımadasındakı heç bir dövlət, etnik və dini istiqamətdən homogen deyil. Bu qarmaqarışıq vəziyyəti belə də izah edə bilərik: Balkan yarımadasındakı siyasi xəritə ilə etnik yayılma xəritəsi arasında böyük uyğunsuzluqlar var. Demək olar ki, heç bir etnik qrup (Monteneqrolular və Sloveniyalılar xaric) tək bir dövlətin damı altında yaşamamaqdadır. Məsələn Albaniyanın siyasi sərhədləri ilə Albanların yaşadıqları bölgələrin "üst-üstə düşmə" nisbəti təxminən 50%-dir. Albanların demək olar yarıdan çoxu Albaniyadan kənar, Kosovo və Makedoniyada yaşayırlar.

Bənzər bir şəkildə serblər ilə Serbiya arasında da böyük bir uyğunsuzluq var. 10 milyonu aşan əhalisi ilə Balkan yarımadasının ən böyük etnik qruplarından biri olan serblər, Serbiyadan kənar daha iki ölkədə yaşayarlar: Xorvatiya, Bosniya və Herseqovina. Həmçinin Serbiya torpaqları üzərində yaşayan insanların 15%-dən çoxu serb deyil; bunlar özlərini serblərlə "can düşməni" olaraq görən Albanlar və Sancak bölgəsidakı Slavyan müsəlmanlarıdır.

Balkan yarımadasındakı hansı ölkəni ələ alsaq, bənzər bir mozaika ilə qarşılaşırıq. Bolqarıstanda Türklər və digər azlıqlar əhalinin 15%-ni meydana gətirir. Makedoniya əhalisinin 65%-i makedoniyalılardan meydana gəlir, ölkədə 22% nisbətində alban, 4% Türk və daha başqa azlıqlar yaşamaqdadır. Yunanıstanın Qərbi Frakiya bölgəsində 120.000-ə yaxın Türk, eyni zamanda şimal bölgələrində böyük slavyan makedon azlıq yaşayır. Bosniya və Herseqovinada əhalinin 45%-i müsəlman, 30%-i serb, 17%-i isə xorvat.

Əlbəttə bir ölkə daxilində fərqli etnik və ya dini qrupların yaşaması bir problem deyil. Bu cür mozaikalar, nəzəri olaraq, "çox etnik mənşəli, çox mədəni" bir dövlət nizamı və "bir yerdə yaşamağa" əsaslanan ictimai düstur içərisində yaşadıla bilərlər, eynilə Osmanlı da olduğu kimi. Ancaq çox təəssüf ki, Balkan yarımadasındakı dövlətlərin həddindən artıq milliyyətçi yanaşmaları, qatı ideoloji tətbiqləri bu düsturu qeyri-real hala gətirir. Bölgədəki dövlətlərin əhəmiyyətli bir hissəsi (başlarında Serbiya və Yunanıstan gəlir) homogen bir etnik və dini cəmiyyət meydana gətirmək məqsədindədir. Bu, bəzən Serbiya nümunəsində olduğu kimi "etnik təmizlik" səylərinə, bəzən də Yunanıstan nümunəsində olduğu kimi zorakı assimilyasiya siyasətlərinə gətirib çıxarmaqdadır. Bu ölkələrin belə despot siyasətində israrlı olduqlarını isə illərdir davam edən acı təcrübələrdən sonra artıq öyrənmiş oluruq.

## Ədirnənin arxasında buraxdıqlarımız...




Balkan yarımadasının bu qarışıq xəritəsinin çox maraqlı bir tərəfi isə, Türkiyədən Adriatikə qədər uzanan Türk-İslam qurşağı saxlamasıdır.

Əvvəl keçmişə nəzər salaq. 1912-ci ildəki Balkan müharibəsinə qədər İstanbuldan yola çıxıb Adriatik dənizinə qədər Osmanlı İmperiyasının sərhədləri daxilində irəliləmək mümkün idi. Bütün Qərbi Frakiya, Makedoniya, Albaniya və hətta bugünkü Yuqoslaviyanın sərhədləri daxilində qalan Kosovo və Sancak bölgəsi belə Osmanlı suverenliyi altında idi. Saloniki, Osmanlı İmperiyasının ikinci böyük şəhəri idi. Üstəlik, bu Rumeli torpaqları üzərində yaşayan əhalinin də əksəriyyətini Türklər və müsəlmanlar meydana gətirirdi. Qərbi Frakiya və Makedoniyada bir vaxtlar Anadoludan köçmüş olan Türklər və müsəlman slavyanlardan ibarət olan Türk-İslami xalq, çoxluğu təşkil edirdi. Albaniya, Kosovo və Makedoniyada yaşayan Albanlar da İslam dinini qəbul etmələrinə görə Osmanlı İmperiyasının "xas" millətindən sayılırdı.

Bu Osmanlı mirasının Balkan yarımadasında hələ də ayaqda olduğunu görmək üçün isə, İstanbuldan çıxıb Bosniya və Herseqovinanın Şimal-Qərb ucundakı Bixaça səfər etmək kifayət edər. Türkiyə sərhədlərindən çıxıb Yunanıstana girdiyinizdə, Türk azlığın yaşadığı Qərbi Frakiya torpaqları üzərində irəliləyirsiniz. Burada təxminən 120 min Türk soydaşımız var və Yunanıstanın on illərdir tətbiq etdiyi assimilyasiya siyasətlərinə baxmayaraq israrla milli və dini şəxsiyyətlərini qorumaqdadırlar.

Qərbi Frakiyanın dərhal yuxarısında, Cənub-Şərqi Bolqarıstanda isə daha izdihamlı və geniş bir Türk azlıq yaşamaqdadır. Bolqarıstan əhalisinin 9%-ni meydana gətirən Türklər, ölkənin şimalında və cənubunda yer alıan iki geniş bölgədə yaşayırlar. Cənubi Bolqarıstanda Qərbə doğru irəlilədikcə bu dəfə də Pomak Türklərinin sıx olaraq yaşadığı bölgələrə çatarsınız. Pomaklar az saydakı qaraçı ilə birlikdə, Bolqarıstanın 13%-lik müsəlman əhalisini meydana gətirirlər.

Qərbə doğru bir az da irəlilədikdə Makedoniyaya çatarsınız. Yunanıstanla Serbiyanın arasında sıxışmış olan və hər ikisini də özü üçün bir təhdid olaraq görən bu kiçik Balkan dövləti, strateji olaraq Türkiyə ilə eyni tərəfdədir. Bundan əlavə, Makedoniyada çoxlu sayda Alban və sayları yüksək olmasa da sözləri keçən Türk azlıq yaşamaqdadır. Bu iki müsəlman ünsür, ölkə əhalisinin təxminən 30%-ni meydana gətirir.

Daha da Qərbə getdiyinizdə isə, Türkiyəyə köçmüş olan milyonlarla soydaşı, müsəlmanlığı və anti-serb, anti-uunan strateji mövqeyə görə yenə Türkiyəyə yaxından bağlı olan Albaniyaya çatarsınız. Çatdığınız sahil Adriatik sahilidir.



Hamısı bu qədər deyil. Albaniyadan şimala çıxın, bu dəfə “Serbiya içindəki Albaniya”ya, yəni Kosovoya çatarsınız. Kosova əhalisinin 90%-ni meydana gətirmələrinə baxmayaraq Serbiya rəhbərliyi tərəfindən sistemli bir şəkildə əzilən Albanlar, müsəlman şəxsiyyətinə və dolayısı ilə “Türkiyə tərəfə” psixoloji olaraq son dərəcə bağlıdırlar. Kosovodan Şimal-Qərbə doğru irəlilədiyinizdə isə, Serbiya ilə Monteneqro arasındakı sərhəd boyu uzanan Sancak bölgəsinə gəlirsiniz. 1912-ci ilə qədər Osmanlı torpağı olaraq qalmış olan bu bölgədəki slavyan müsəlmanları, son dərəcə güclü bir islami şəxsiyyətə sahibdirlər.

Sancağın bitdiyi yerdə Bosniya başlayır. Bu gün Şərqi Bosniya, Bosniya və Herseqovina Federasiyasının Serb tərəfini meydana gətirən Serb Respublikasına aiddir. Amma işğal edilmiş olan bu bölgə bir az yarılsa, İzzetbeqoviçin Dayton razılaşmasında buraxmamaq üçün çox müqavimət göstərdiyi “Qorazde koridoru”nu istifadə edərək Sarayevoya və oradan da Osmanlı İmperiyası sərhədlərinin çatdığı ən uc nöqtəyə, Bixaça çatmaq mümkündür.

Ədirnədən Bixaça uzanan bu qurşaq, diqqət yetirilsə, geostrategiya olaraq olduqca mənalı bir xətt üzərində uzanmaqdadır. Bu isə təsadüfü bir vəziyyət deyil, əksinə hesablanmış və şüurlu olaraq yaradılmış bir strategiyadır: Osmanlı rəhbərliyi, Balkan yarımadasını fəth etdikdən sonra bölgədə demoqrafik bir tənzimləmə etmiş və əsrlər sürən müddət ərzində bölgədəki əhəmiyyətli strateji nöqtələrə müsəlman birlikləri yerləşdirmişdir. Bu müsəlman birliklərin bir hissəsi Anadoludan köç etdirilərək Balkan yarımadasına yerləşdirilən köçəri Türkmən boyları, bir hissəsi isə müsəlmanlığı sonradan qəbul edən otokton (müsəlmanlığı sonradan qəbul edən, əslən Türk olmayan, amma müsəlman olduğu üçün bölgədə Türk qəbul edilən xalqlar) bölgə xalqlarıdır (albanlar, boşnaklar kimi).



# Osmanlı gitti, huzur bitti

**Belçika'da yayınlanan Knack dergisi, Osmanlı döneminde barış içinde yaşayan Balkanlar'ın, Osmanlı İmparatorluğu'nun yıkılışından sonra huzuru kaybettiğini yaz**

HALİL UYGUN

OSMANLI ÇEKİLİNCE...



Qısaca Osmanlı İmperiyası artıq yoxdur, amma Balkan yarımadasını bir ucundan digər ucana qədər qət edən Türk-İslam mədəniyyəti onun mirası olaraq hələ ayaqdadır. Sayları 10 milyona yaxın Balkan müsəlmanları, Ədirnədən Bixaça qədər uzanan bir xətt üzərində yaşamaqdadırlar. Bundan əlavə bu xətt üzərində bəziləri 1878-ci ildən, bəziləri isə 1912-ci ildən bu yana müqavimət göstərməkdədirlər. Tək ümidləri isə bir gün əvvəlki hüzurun, sülhün və nizamın yenidən qurulması, güclü birliyin təsis edilməsidir...

## Balkan müsəlmanlarının Türk şəxsiyyəti

"Türko-İslami" tərifi istər Balkan müsəlmanlarının şəxsən özləri tərəfindən, istər onları "düşmən" olaraq görən Balkan milliyyətçiləri tərəfindən mənimsənilən bir təsvirdir. Bu gün başda serblər olmaq üzrə digər bütün Balkan milliyyətçiləri, boşnakları və albanları, yəni etnik olaraq Türk olmayan və Türkcə danışmayan Balkan müsəlmanlarını "Türk" olaraq tanıdırlar. Bunun səbəbi isə, etnik mənşələri nə olursa olsun, Balkan yarımadasındakı bütün müsəlmanların, aralarında yaşadıqları xristian xalqlardan ayrı bir "millət" hesab edilmələridir. Bu "millət"in adı isə, hər nə qədər etnik bir Türklüyü ifadə etməsə də, "Türk milləti"dir. Florida Universitetindən Balkan tarixçisi Maria Todorova bu vəziyyəti belə açıqlayır:

**"Balkan milliyyətçiliyi Ortodoks xristianların birliyini parçalayarkən, digər tərəfdən tək bədən və dəyişməz müsəlman camaatı imici ortaya qoymuş və bunu da "millət" anlayışı əsasında görməkdədir. Bir başqa sözlə, Balkan yarımadasındakı xristian xalqlar öz aralarında milliyyətçilik meyarına görə ayrı-seçkilik yaradarkən, həm də müsəlmanlara, sanki bu insanlar tək bir millətmiş kimi davranıblar və bu istiqamətdə bir ifadə ortaya qoyublar. Bu xristian tətbiqinin ən açıq nümunəsi, Balkan yarımadasındakı bütün müsəlmanlara, etnik mənşələrinə görə ayrı-seçkilik etmədən, "Türk" deyilməsidir. Bu, bölgədə hələ çox məşhur olan ifadədir. Eyni zamanda, Balkan müsəlmanlarının ümumiliyi də, milliyyətçi ifadəyə adaptasiya olmadıqları və Balkan yarımadasındakı xalq-dövlət yaratmadakı ayrı-seçkiliyə məruz qaldıqları üçün, özlərini ayrı bir "millət" sayan ictimai şüuru bu günə qədər qoruyublar."35**





Todorovanın da ifadə etdiyi kimi, Balkan müsəlmanları üçün dini şəxsiyyətləri həmişə etnik şəxsiyyətlərindən daha üstün olub. Bosniyadakı vəziyyət daha da diqqətə çarpandır; serblərlə ya da xorvatlarla tamamilə eyni etnik mənşəyə sahib olan və eyni dili danışan boşnaklar, bu iki xalqla heç vaxt kollektivləşməmiş, özlərini həmişə Osmanlı prizmasında görmüşlər.



Bulgaristan'da yıkılan camilerin yerine kilise inşa ediliyor. Bazı camiler de hâlâ ibadete kapalı tutuluyor

# Bulgarlar yine azıttı

Fethi SATICI

Bulgarlar Türkler'in çoğunlukta olduğu Şumen'deki (Şumnu) Şerif Halil Paşa Camiini ve caminin külliyesini yıkıp yerine kilise inşa etti. Yaklaşık beşyüz yıllık bir geçmişi ve tarihi olduğu bildirilen camii yıkan Bulgar yönetimi, Balkanlar'ın en büyük ve tarihi camini olan Razgart'taki, İbrahim Paşa Camiini de ibadete kapalı tutuyor. Bulgaristan'da yaşayan müslüman Türkler'in dini vecibelerini yerine getirmesini istemeyen Bulgar yönetimi, İbrahim Paşa Camii'nin kapılarını kaynak yaparak ibadet edilmesini engelliyor.

...lar, son günlerde Bulgaristan'daki Müslüman azınlıklar üzerinde baskı oluşturmaya başladı. Bu çerçevede başlatılan baskılar sonucunda din görevlisi iki Türk, İslâmi çalışmalarda bulundukları gerekçesiyle Bulgaristan'dan sınır dışı edildi ve Bulgaristan'a girişleri yasaklandı. Özellikle Şumnu, Razgart, Kırcaali, Omurtak, Kızanlık, Rakitowo, Eski Cuma, Selviof ve Deliorman bölgesinde yaşayan Müslümanların üzerinde baskılar artmaya başladı.

Bulgaristan'da yaşayan Türkler, "Türkiye'de İslâm düşmanlığı ve müslümanların sindi...

Özellikle İmam Hatip Liselerinin dolaylı bir şekilde kapatılması ve başörtüsü zulmünün başlatılmasından cesaret alan Bulgar yetkililer, zaten İslâmiyeti tam olarak yaşayamayan bizlerin üzerinde baskı kurmaya başladılar, camilerimizi yıkmaya, kapatmaya başladılar. Bulgaristan'da yaşayan Türkler şimdi de İslâmi yönden asimilasyona tabi tutulmaya başladı. Çocuklarımız abdest almayı, namaz kılmayı bile bilmiyorlar. Biz yetişkinler bile doğru dürüst din eğitimi alamadık. Bulgaristan'da İslâm dini, istenmeyen ve yasaklanan din haline getirilmek isteniyor" şeklinde konu...

...yaşadığı Razgart'ta İbrahim Paşa Camii'nin giriş kapısını Bulgar yöneticiler elektrik kaynağı yaparak kilitlediler. Çünkü bu caminin iki kanatlı olan kapısı demirden. Caminin pencereleri de demir parmaklıklı olduğu için içeriye girip gezmemiz mümkün olmadı. Burada yaşayan soydaşlarımızın anlatıklarına göre caminin içi içler acısı bir durumda. 1970 yılından beri müslümanların ibadetine kapalı tutulan ve Türkiye'den sonra Balkanların en eski ve büyük camisi olduğu bildiri...

Balkan mütəxəssisi Eran Frankel eyni vəziyyətin Makedoniya daxilində də keçərli olduğunu vurğulayır. Frankelə görə, “Makedoniyalı müsəlmanlar heç vaxt Makedoniyalılıq adına İslamı geri plana atmamış və ya imtina etməmişlər. Əksinə, bir çox dəfə slavyan olduqlarını rədd etmişlər və slavyan olmayan bir islam şəxsiyyətini mənimsəyiblər.”36 Yenə Frankelə görə Makedoniyadakı müsəlman albanlar ya da qaraçılar, özlərinə slavyan şəxsiyyətini mənimsəməkdənsə, “Türk” olaraq adlandırılmağı tərcih edirlər.37



BOSNALI SIRPLAR CAMİYE SALDIRDI

Bosna Sırp Cumhuriyeti'nde cami onarımı için yapılan törende olay çıktı. 4 bin Sırp eylemcinin taşlı-sopalı gösterisinden kaçan BM heyeti İslam toplumuna ait binada mahsur kaldı...

BOSNA Sırp Cumhuriyeti'nin başkenti Banya Luka'da 16. yüzyıldan kalma ve 1993 yılında Sırplar tarafından bombalanan Ferhadiye Camii'nin restorasyonunun başlaması dolayısıyla düzenlenen törende çıkan olaylarda çok sayıda kişi yaralandı. Tören için gelen BM Genel Sekreteri'nin Bosna Temsilcisi Jacques-Paul Klein, ABD'nin Bosna Büyükelçisi Thomas Miller, AGİT Temsilcisi Roger Bryant, BM Mülteciler Yüksek Komiserliği Temsilcisi Werner Blatter ve Bosna Yüksek Temsilcisi'nin Yardımcısı Georges Bonté, cami yanındaki İslam toplumuna ait binada mahsur kaldı.

Sayıları 4 bini bulan göstericiler bir zırhlı araç ile 4 otobüsü ateşe verdi. Çok sayıda aracı da ateşe veren göstericiler, "Cami istemiyoruz, kilise inşa edin" ve "Radovan Karaciç" diye slogan attılar.

Çatışmalarda, 3'ü Bosna Sırp polisi en az 5 kişinin yaralandığı bildirildi. Sırp göstericilerin, tören için toplanan kalabalığa taş, şişe ve maytap attıkları bildirilirken, cami yanında Müslümanlara ait binanın camlarının kırıldığı ve Bosna Hersek Dışişleri Bakanı Zlatko Lagumdziya'nın makam aracının atılan taşlardan hasar gördüğü kaydedildi. Göstericilerin, seccadeleri de ateşe verdikleri, İslam toplumuna ait binanın çatısına çıkarak, gönderdeki bayrağın yerine Bosna Sırp bayrağı çektikleri belirtildi.

**Başbakan İvaniç'in telaşı**

Bu arada Bosna Sırp Başbakanı Mladen İvaniç, kuşatılan binadan içeri girdi ve mahsur kalanlar serbest kalmadıkça kendisinin de çıkmayacağını açıkladı. Olayları önlemek için bir girişimde bulunmayan Bosna Sırp polisi, Başbakan İvaniç'in gelmesinden sonra binadakileri tahliyesini edebilmek için göstericileri dağıtma girişimine başladı.

Olayların kontrolden çıkmasına Bosna Sırp polisi ve İstikrar Gücü'ne (SFOR) bağlı askerlerin kayıtsızlı-

Yaklaşık 4 bin Sırp eylemci birçok aracı ateşe

Məhz bu səbəblə də, Türkiyənin Balkan yarımadasındakı “davamı” olan xalqlar, ancaq bir neçə milyonluq Balkan Türkü deyil, əhalisi 10 milyona çatan Balkan müsəlmanlarıdır. Çoxu etnik olaraq Türk olmayan və Türkcə danışmayan bu insanlar, özlərini eyni dili danışdıqları serblərdən və ya bolqarlardan çox, Türklərə yaxın hiss etməkdədirlər.

Çünki bu insanlar hər şeydən əvvəl "Osmanlı"dırlar və Türkiyə də Osmanlının yeganə varisidir. Tarixçi Maria Todorova, bu mövzuda bunları söyləyir:

**"Türkiyənin Balkan yarımadasındakı təsiri olduqca kompleksdir. Bu təsir, əvvəlcə Balkan yarımadasındakı Türkcə danışan əhaliyə istiqamətlidir. Bu əhalinin böyük hissəsi Bolqarıstanda yaşayır, qalan hissəsi isə çox daha az sayda Yunanıstan, Rumıniya və keçmiş Yuqoslaviyadadır. Ancaq Türkiyənin təsir sahəsi bununla məhdud deyil. Eyni zamanda slavyan dili ilə danışan müsəlmanlar da Türkiyənin təsir sahəsi daxilindədirlər."38**



Todorova Türk-olmayan Balkan müsəlmanlarının özlərini Türklüklə eyniləşdirmə meylinə göstərici olaraq maraqlı bir nöqtəni daha vurğulayır: 20-ci əsr boyunca Balkan yarımadasından Türkiyəyə köç edən slavyan müsəlmanlar (albanlar daxil), Türk şəxsiyyətini mənimsəyərək Türk cəmiyyəti içində assimilyasiya olmuşlar. Bu vəziyyət, Todorovaya görə, "Osmanlı mirasının Türk təsirinə çevrilməsinin açıq bir nümunəsidir.

Buna görə də, Türkiyəyə düşən Balkan yarımadasındakı etnik və dini mozaikanı yaxşı analiz etmək və bu mozaika daxilində, öz tarixi şəxsiyyətinə uyğun bir strategiya təyin etməkdir. Bunu edərkən etnik, dini və mədəni dəyərlərin dünya siyasətində hər keçən gün daha çox əhəmiyyət qazandığını, dünyanın gedərək daha da artan bir şəkildə mədəniyyətlər arasındakı əlaqələrlə təyin olunacağını da xatırlamaq lazımdır. Əlavə olaraq, Balkan yarımadası, etnik mənşə, din və mədəniyyət kimi anlayışların ən təsirli olduğu bölgələrin başında gəlməkdədir. Bir başqa sözlə, soyuq müharibə sonrası dünyada, Türkiyə Balkan yarımadasına baxarkən öz tarixi və mədəni şəxsiyyətini ön plana çıxarmalı və bu şəxsiyyətə uyğun bir strategiya müəyyən etməlidir.

Görüldüyü kimi, bütün Balkan yarımadasında əslində etnik olaraq "Türk" olmamalarına baxmayaraq, özlərini "Türk" olaraq görən ya da görməyə meylli böyük bir müsəlman əhali var. Bu "fəxri soydaşlarımız"ı bizə bu cür bağlayan ünsür isə Türk-İslam əxlaqı və Osmanlı mirasıdır. Necə ki, 1997-ci ilin əvvəllərində Belqradda mitinqlər əsnasında etirazçıların "Türk rəhbərliyinə həsrətik", "Haradasan ey Türk (Osmanlı) rəhbərliyi altındakı günlər" şəklində afişalar qaldırmaları Qərb mətbuatının da diqqətini çəkmiş və Türkiyənin bölgədə aktiv olmasının vacib olduğunu bir daha qeyd etmişdir.40

Həmçinin artıq Qərb qüvvələr Balkan yarımadasında qanayan yaranı sağaltmağa güclərinin çatmadığını özləri də etiraf etməkdədirlər. Sabiq xarici işlər naziri Hikmət Çətin "Zaman" qəzetində nəşr olunan bir xəbərdə Qərbin Balkan yarımadası problemini həll etməkdə düşdüyü aciz vəziyyəti bu şəkildə ifadə etmişdir:

**"1992-ci ildə Bosniya və Herseqovina mövzusunda yığıncaq edilirdi. Türkiyə də çağırıldı. Miloseviç, Karadziç hamısı otururdular. Mənim yanımda Amerika Xarici İşlər Naziri var idi. Yuqoslaviyada yeddi il səfirlik etmiş. Mənə dönərək "Siz bu fəlakət yerlərdə 500 il necə qaldınız?" dedi."41**

Görüldüyü kimi Balkan yarımadasında qalıcı sülhün inşa edilməsinin yolu Türk-İslam mədəniyyətinin dövlət anlayışından keçməkdədir. Bu gün hər cür texniki, texnoloji və hərbi imkana sahib olan Qərb, bölgəyə ancaq hərbi qüvvə yığnağı etməklə kifayətlənməkdə, ancaq bölgə xalqlarının özlərini etibarlı hiss edə biləcəyi asayiş və nizamı təmin edə bilməməkdədir. Əksinə, bütün xarici müdaxilələr bölgədə baş verənləri daha da qarışıq hala gətirməkdə, zülmün sürətini və şiddətini artırmaqdadır.

Məhz buna görə də, Türkiyə Osmanlı şəxsiyyətinə və tarixinə sahib çıxmaqla öhdəçidir. Üstəlik bu vəziyyət Türkiyə üçün böyük bir strateji üstünlük də meydana gətirməkdədir. "Osmanlı" anlayışı Türkiyənin təsirini sərhədlərinin çox kənarına daşıyan böyük bir təsəvvürün adıdır. Bu Balkan yarımadasında olduğu kimi Orta Şərqdə də belədir.

FƏSİL

# Orta Şərqə sülhü gətirmək

Orta Şərq bəlkə də dünya coğrafiyasının ən qarışıq, ən problemli və ən əhəmiyyətli bölgəsidir. 20-ci əsrin ən böyük dəyəri halına gəlmiş olan neftin yüksək miqdarda çıxarılması ilə böyük əhəmiyyət qazanan Orta Şərq, keçən əsrin əvvəlindən bu yana dünyanın ən qeyri-sabit, ən qanlı bölgələrindən biri halına gəlmişdir. Müharibə, terror, işğal, qətliam, qarşıdurma kimi sözlər Orta Şərq xalqının gündəlik həyatının bir parçası halına gəlib.



Müsəlmanların, xristianların və musəvilərin müqəddəs məkanlarını ehtiva edən bu torpaqlar, 1517-ci ildə Yavuz Sultan Səlimin fəthi ilə Osmanlı torpaqlarına daxil olmuş, 19-cu əsrin başlarına qədər də Osmanlı hakimiyyətində qalmışdır. Eyni illərdə Hicaz torpaqlarının da Osmanlı sərhədlərinə daxil edilməsi ilə birlikdə, bölgədə bir mənalı olaraq Türk hakimiyyəti təmin edilmişdir.

Türk hakimiyyəti ilə birlikdə bölgəyə hüzur, bolluq və rifah gəlmişdir. Başda Qanuni Sultan Süleyman olmaq üzrə, bütün Türk Sultanları da Qüds torpaqlarına xüsusi maraq göstərmiş, İmperiyanın ən çətin və sıxıntılı günlərində belə bu bölgəyə laqeyd yanaşmayıblar. Qurulan vəqflər və təhsil təşkilatlarının köməyi ilə xalqın maddi vəziyyəti qədər mədəniyyət səviyyəsinin də yüksəlməsi üçün səy göstərmiş, bölgədə köklü Türk-İslam mədəniyyəti qurmuşlar. İndiki vaxtda bölgə xalqı özünü Osmanlı-Türk mədəniyyətinə yaxın hiss etməkdə və bölgədə Türk-Osmanlı mədəniyyəti, arxitekturası, əməyi və bütün görkəmi ilə varlığını hələ də qorumaqdadır.

Hər üç dinin də mərkəzi mövqeyindəki Qüds, tarix boyu ən uzun sabitlik dövrünü Osmanlılar dövründə yaşamış, Qüds xalqı 400 il boyu ədalətin, sülhün və təhlükəsizliyin nemətlərindən faydalanmışdır. Xristianlar, musəvilər və müsəlmanlar bütün məzhəbləri ilə birlikdə, öz inancları istiqamətində, istədikləri kimi ibadətlərini yerinə yetirmiş, öz ənənə və adətlərini yaşamışlar.

Ancaq bu torpaqların Osmanlının əlindən çıxması ilə birlikdə əvvəl müstəmləkəçi dövlətlərin, daha sonra 1948-ci ildə qurulan İsrail dövlətinin tətbiq etdiyi işğalçı siyasət, təxminən 100 ildir bölgədə hüzur və nizam buraxmayıb. 19-cu əsrin ikinci yarısında və 20-ci əsrin əvvəlində Balkan yarımadasındakına bənzər hadisələr Orta Şərqdə də yaşanıb. Osmanlını bu bölgədən uzaqlaşdırmaq və geridə qalan bütün izlərini silmək istəyən qüvvələr yenə dövrəyə girmiş və Balkan

yarımadasındakına bənzər parçalama siyasətinə başlamışlar. Xüsusilə də, İngiltərə və Fransanın müdaxilələri Orta Şərqi bitmək bilməyən bir qarışıqlığın içinə sürümüşdür. Orta Şərqin dünyanın ən zəngin neft yataqlarını saxladığının fərq edilməsi isə Orta Şərqi paylaşma yarışını sürətləndirib. İki ölkə arasındakı gizli "Says-Piko" sazişi Fransa və İngiltərənin bu gizli planlarının sənədi xüsusiyyətindədir.

1916-cı ildə İngiltərə nümayəndəsi Ser Mark Sayks ilə Fransa nümayəndəsi M. F. Corc Piko arasında imzalanan bu saziş Osmanlı torpaqlarını İngiltərə, Fransa və Rusiya arasında paylaşdırarkən, Fələstin üçün də beynəlxalq status nəzərdə tuturdu. Məhz bu, irəlidə qurulacaq olan İsrail dövləti üçün də ilk addım idi.

## Bölgəyə terror toxumlarının səpilməsi...



"Says-Piko" sazişinin imzalandığı dövr, həm də bölgədə bir Yəhudi dövləti qurulması üçün atəşli bir səyin icra edildiyi dövr idi. Miladdan sonra 70-ci ildə bu torpaqlardan sürgün edilmələri ilə birlikdə dünyanın dörd bir tərəfinə dağılan yəhudilərin Fələstin xəyalı tarixin heç

bir dövründə sönməmişdi. 1890-ların əvvəlində əslən jurnalist olan Teodor Hertslin rəhbərliyində qurulan "Sionizm" hərəkatı, dünyaya yayılmış olan Yəhudilərin təkrar Fələstinə qayıtmaları və müstəqil bir dövlət qurmaları üçün işlərə başladı. Herzl 21-31 avqust 1897-ci il tarixində Basledə keçirdiyi 1-ci Sionist konqresində təməl hədəf və üsulları təsbit etdi. Bu məqsədlə təşkilatlar toplandı, fondlar yaradıldı, günümüz deyimi ilə son dərəcə təşkilatlı bir "lobbiçilik" fəaliyyəti başladı (Mövzu haqqında ətraflı məlumat üçün baxın: "Yeni masonik nizam", Harun Yəhya, Araşdırma Nəşriyyat, 5-ci nəşr, iyul 2000).



Fələstində Yəhudi dövləti qurma hədəfindəki Yəhudi milliyyətçiləri, digər adı ilə Sionistlər, əvvəlcə topladıqları pullarla Fələstində yaşayan ərəblərdən torpaq almağa başladılar. Ancaq əsl hədəflərinə bu şəkildə çata bilməyəcəklərini bilirdilər. Teodor Hertsl 19 may 1901-ci il tarixində Sultan Əbdülhəmidlə görüşündə, "Avropa birjasını əllərində tutan yəhudilərin Osmanlı İmperiyasının bütün borclarını ödəməsi qarşılığında Fələstin torpaqlarının onlara verilməsini" ehtiva edən gizli təklifləri oldu. Ancaq bu təklif Sultan tərəfindən "Vətənin bir qarış torpağı belə satılıq deyil"42 reaksiyası ilə geri çevrildi.



1917-ci ildə isə İngiltərə Xarici İşlər naziri Ceyms Balfour, Sionistlərin liderlərindən olan Edmond Da Rothschildə göndərdiyi məktubda "Əla-həzrətlərinin hökumətinin Fələstində bir yəhudi dövləti qurulmasını dəstəklədiyini" ifadə edir, beləcə beynəlxalq arenada İsrail dövlətinin yolu da açılmış olurdu. Bu vəd, Fələstinin 1-ci dünya müharibəsinin sonunda Osmanlının suverenliyindən çıxması ilə məna qazandı. 1918-ci ildə Osmanlı əsgərləri Fələstindən çəkildi və bölgə İngilis hakimiyyətinə daxil oldu. Bu yeni hakimiyyətlə birlikdə bölgə təxminən bir əsr davam edən qarşıdurmanın da içinə girmiş olurdu. 1880 ilə 1918-ci illər arasında Fələstində 24 min olan Yəhudi əhalisi 65 minə çıxır və beləcə haqsız yerə yurdlarından çıxarılan ərəblərlə yəhudilər arasında gərginliklər qızışmağa başlayırdı. Bölgədə nizamlı olaraq artan yəhudi əhalisi, 2-ci dünya müharibəsində ümumi əhalinin dörddə birinə yüksəldi.




Ərəblər, ingilislər və yəhudilər arasında illər sürən qarşıdurmalar 1947-ci ildə Birləşmiş Millətlər Təşkilatının nəzdində müzakirə olunmağa

başlandı və mövzu ilə bağlı qurulan xüsusi komissiya Fələstinin yəhudi və ərəblər arasında ikiyə bölünməsini, Qüdsün isə beynəlxalq bir statusa qovuşdurulmasını təklif etdi. Ancaq təklif ərəb dövlətləri tərəfindən qəbul edilmədi. Sionistlərin 1948-ci ildə müstəqil dövlətlərini elan etmələri ilə birlikdə 50 ildən çox davam edən müharibənin təməli atılmış oldu.














İrqçi və işğalçı ideologiya olan Sionizm üzərinə inşa edilmiş olan İsrail, əvvəl 1948-ci ildə, ardından da 1967-ci ildə Ərəb torpaqlarını işğal etdi və bu iki mərhələdə Fələstinin hamısını ələ keçirdi. 3,5 milyon Fələstinli evlərini tərk edib qaçqın olaraq həyatlarını davam etdirməyə başladılar. İllərlə davam edən döyüşlər nəticəsində minlərlə günahsız insan həyatını itirdi. İsrailin quruluşundan bu yana terror və şiddəti dövlət siyasəti halına gətirmiş və ancaq işğal etdiyi torpaqlarda deyil, bütün Orta Şərq coğrafiyası üzərində terrorun və anarxiyanın baş aktyoru olaraq iştirak etmişdir.













İsrail terroru hələ də davam etməkdədir. Qadın, uşaq, yaşlı ayırd etmədən qırğınların həyata keçirildiyi Fələstin torpaqlarında, hələ də 11-12 yaşındakı uşaqların güllələrə, raketlərə, hava hücumlarına qarşı daşlarla və çubuqlarla yürütdükləri amansız müqavimətləri artıq adi mənzərələr halını almışdır. Hələ 15 yaşına belə gəlməmiş uşaqlar İsrailli əsgərlərin qundaqları ilə faciəvi şəkildə döyülməkdə, məktəblərinə güllə-boran altında getməkdə, atdıqları daşlara həqiqi güllələrlə cavab verildiyi üçün çoxu şikəst qalmaqda ya da ölməkdədirlər. Ancaq İsrail dövlətinin, dünya ictimaiyyətinə əks olunan bu görüntülərdən də uzaq terror anlayışı var. 1948-ci ildə bir Ərəb kəndi olan “Deir Yassin”ə İsrail terror təşkilatı “Stern” tərəfindən təşkil edilən hücumun izləri hafizələrdən hələ silinməmişdir. Hamilə qadınların və uşaqların da daxil olduğu 280-ə qədər kəndlinin küçələrdə dolaşdırıldıqdan sonra gülləyə düzüldüyü Deir Yassində gənc qızlara təcavüz edilmiş, kişilərin cinsi orqanları qopardılmışdır. Hesabatlarda ortadan ikiyə bölünən kiçik bir qız uşağından belə söz edilməkdədir.[43] Bu şəkildə 6 ay içində Ərəb kəndlərinə qarşı təşkil edilən saysız basqın nəticəsində 400.000-ə yaxın Ərəb yurdunu tərk etmək məcburiyyətində qalmışdır.







12 22 MAYIS 2004 Cumartesi Dizi

İSRAİL'İN, FİLİSTİN'E KARŞI GİRİŞTİĞİ SOYKIRIMA DÜNYA SESSİZ KALIYOR

# Çekilirken bile yıktılar

Günlerdir İsrail saldırısı altında yerle bir olan Refah'ta, silâh ve yıkım sesleri yerini sessiz hıçkırıklara bıraktı. Askerler girerken harabeye çevirdikleri yerlerden çekilirken de yine aynı eylemlerini sürdürdü

İsrail, ardında onlarca ölü ve yaralı, harabeye dönmüş bir şehir ve çaresiz gözyaşları bırakarak Refah mülteci kampından çekildi. İsrail ordusunun son 3 gündür operasyon yürüttüğü Refah mülteci kampı, savaş ve yıkım seslerinin kesilmesinin ardından, ağlayan kadın ve çocukların hıçkırıklarıyla çınlamaya başladı. İsrail askerleri ve tankları bölgeden uzaklaşırken, yine yıkımlarına devam ederken, İsrailli ordu yetkilileri, kampta az sayıda asker bulunduracaklarını açıkladı.

**3 GÜNDE 40 KİŞİ ÖLDÜRÜLDÜ**

İsrail salı günü başlattığı ve 3 günde en az 40 Filistinli'yi öldürdüğü saldırının "silâh kaçakçılığı yapılan tünelleri ortadan kaldırmak ve Mısır sınırındaki güvenlik bölgesini genişletmek" amacıyla düzenlendiğini bildirmişti. İsrailli yetkililer, askerlerin Refah'ın tamamından ne zaman geri çekileceklerinin belirsiz olduğunu söylerken, evleri yıkılan ve sevdiklerini kaybeden Filistinli mülteciler ise çok öfkeli.

Canlarını istediğinde Filistin topraklarına giren İsrail askerleri, zaten derme-çatma olan evleri de yıkarak günahsız halkı iyice perişan ediyor.

Refah sokakları, evlerinin yıkıntıları arasında eşyalarını toplamaya çalışırken, gözyaşları içinde teselli arayan Filistinli kadınlarla dolu



20 Mayıs 2004 Perşembe star

İSRAİL FİLİSTİN'DE ÇOLUK ÇOCUK KATLEDİYOR

# SOYKIRIM

Dünya Irak'taki işkence rezaletiyle ilgilenirken İsrail yine Filistinliler'i yok etme operasyonuna girişti. Filistinliler'i tutukladılar, evlerini yıktılar, göçe zorladılar Kalanların üzerine dün ölüm yağdırdılar. Ölenlerin çoğu çocuk. Dünya ise seyretti

İsrail helikopterleri, evlerinin yıkılmasını protesto eden Filistinliler'in üzerine füze yağdırdı...

İSRAİL yine, dünyanın gözüne baka baka katliama girişti. "Bosna Kasabı" Miloseviç'ten farklı olarak, İsrail Başbakanı Şaron'a "dur" diyecek kimse çıkmadı. Dünkü katliamı dünya gıkını çıkarmadan seyretti. İsrail dün Filistin topraklarını kana buladı. Günlerdir Gazze şeridindeki Refah Filistin mülteci kampı ve etrafını abluka altına alan İsrail ordusu, önce Filistinliler'in evlerini yıktı. Yaklaşık 90 bin Filistinli'nin yaşadığı bölgede, yıkımlar düne kadar sürdü. Binlerce Filistinli göçe zorlandı. Dünkü saldırıda en az 22 Filistinli öldü onlarcası yaralandı. Morglar dolup taştı.

**EN KANLI SALDIRI**

FİLİSTİN mülteci kampı Tel Es-Sultan'da evlerinin yıkılmasını protesto eden 3 bin kadar Filistinli'nin üzerine İsrail, helikopterlerle füze attı. Aynı

İsrail dövləti bölgədə ideologiyası ilə tətbiq etdiyi terror və təzyiq siyasətini gizli və ya açıq davam etdirməkdədir. Həmçinin bölgədəki digər dövlətlərin də istər öz daxili problemləri, istər bir-birlərindən dəstək görməmələri, istərsə də zəif iqtisadiyyatlarına görə bu siyasətə qarşı təsirli güc yaratmaları mümkün olmamaqdadır. Hər biri süni sərhədlərlə bir-birlərindən ayrılmış olan Orta Şərq dövlətləri tək bir ideal və ülkü yönündə özlərini birləşdirəcək və istiqamətləndirəcək bir gücü gözləyir.

Bu güc isə sahib olduğu tarixi miras gərəyi Türkiyənin əlindədir. Çünki Türkiyənin bütün bölgə dövlətləri üzərində təxmin ediləndən daha çox təsiri var. Ancaq 1-ci dünya müharibəsi əsnasında Qərb dövlətləri tərəfindən bu bölgədə izlənilən siyasətin izləri də hələ də davam etməkdədir.



## "Ortadoğu liderini arıyor"

Prof. Dr. *Bernard Lewis*, ünlü bir tarihçi. Yakındoğu ve Ortadoğu tarihi uzmanı. Yapı Kredi'nin daveti üzerine 1996'da geldiği Türkiye'de bir konferans verdi. "Yapı Kredi Plaza"da gerçekleştirilen konferanstan basına yansıyan açıklamalarının özeti unutulacak cinsten değil...



**İslamiyet'te çatışma yok**

*"Laiklik, Hristiyanlar'ın karşı karşıya kaldığı bir meseleye çözüm olarak üretilmiş bir sistemdir. Müslümanlar'ın böyle bir meselesi yok. Ancak Müslümanlar son yıllarda Hristiyan hastalığına yakalandığı için bu laiklik anlayışını kullanabilirler. Hristiyanlık tarihinde devletle kilise arasında sürekli bir çatışma var oldu ve sürekli bir ikilem içinde bulundu. Kilise ile devlet arasındaki bu zıtlıktan laiklik ortaya çıktı. Dinî kurumlar ile devlet arasındaki bu çatışma İslâmiyet'te bulunmuyor. İslâm'da kiliseye benzeyen ayrı bir kurum hiçbir zaman olmamıştır. O sebepledir ki böyle bir yapılanmaya da ihtiyaç duyulmamıştır. Tarihte camilerin hiçbir zaman bu tür etkilerine rastlanmamıştır. Ayrıca Müslümanlar arasında Avrupa'daki gibi bir mezhep çatışmasına da rastlanmamıştır. Osmanlı'da inancı ve etnik kökleri ne olursa olsun devlete bağlı olmak özelliği aranırdı. Müslümanlar'ın böyle bir meselesi yoktu...*

*Osmanlı'da neden reformlar yapılmadı? gibi bir düşünceyi yadırgıyorum. Reformlar kilisenin otoritesine karşı yapıldığı için Müslümanlar'ın böyle bir probleminin olmaması çok tabiîdir. İslâmiyet'te demokrasinin gelişmesine uygun yanlar olduğu gibi uyumsuz taraflar da bulunmaktadır.*

**İngiliz-Fransız rekabeti**

*Ortadoğu, son 200 yıldır İngiliz ve Fransız rekabeti ile yönetilmektedir. Napolyon'la başlayan bu dönem artık kapanmış ve bölgenin yeni hakimi yine bu bölgeden çıkacaktır. Batılı güçlerin bölge üzerindeki etkisi bitmiştir. ABD'nin Ortadoğu müdahalesi Rusya'ya karşı yapılmıştır. Bugünün şartlarında dış güçler eskisi gibi Ortadoğu'ya ilgi duymuyorlar. İlgileri daha az seviyede. Bu ilgisizlik gitgide artmaktadır. Artık durum değişmiştir. Bu durum değişikliğine göre birtakım ayarlamaların yapılması gerekmektedir. SSCB'nin dağılmasının ardından bölgede ortaya çıkacak yeni bir güç Ortadoğu'ya hakim olacaktır. Artık iş size kalıyor.*

**Osmanlı'da herkes eşit**

*Ortadoğu'da yaşayan insanlar arasında bir kimlik çatışması yaşanmaktadır. 19. yüzyılda milliyet, azınlık gibi kavramlar Batı'dan geldi. Osmanlı'da milliyet ve azınlık kavramları yoktu. Türk denilmiyor Müslüman deniliyordu. Rum kelimesi de patriğin tebası olan Ortodokslar'ın bütünü için kullanılıyordu. Etnik köken devlet olma özelliği için Osmanlı'da yeterli değildi. Osmanlı'da çoğunluk azınlık diye bir kavram da yoktu. Bir sınıfın başka bir sınıf insana lütufta bulunması anlamına gelen azınlık Osmanlı'da yoktu. Devletin gözünde herkes eşitti. İki defa Viyana önlerine dayanması sebebi ile Batı'nın Türkiye'ye bakışında çok büyük oranda cehalet ve önyargı var. Bu yaklaşım karşılıklı, İslâmiyet'e karşı da tamamen ilgisiz ve kayıtsız yaklaşılıyor. İslâmiyet adına yapılan terörist faaliyetler de Batılı insanlar üzerinde olumsuz bir tesir bırakıyor."* (Türkiye, 7.01.1996)



Arap Dünyası, medeniyetin, hoşgörünün ve adaletin baş tacı edildiği dönemin özlemi içinde

# Osmanlı'yı arıyoruz

## Mısır'ın tarih araştırmacılarından Dr. Muhammed Harb, son yıllarda Orta Doğu ülkelerine Osmanlı düşmanlığının aşılandığını söyledi

NURİ YILMAZ

KAHİRE- Mısır, Osmanlı, Türk Alemi ve Balkanlar Araştırmaları Merkezi Başkanı tarih araştırmacısı Dr. Muhammed Harb, dünyanın Türk-İslam alemine karşı ittifak halinde olduğunu belirtti. Osmanlı İmparatorluğu'nun medeniyet ve güç merkezi olduğunu söyleyen Dr. Harb, "Bugün Ortadoğu ve Afrika'da kardeş kardeşe düşürülüyor. Halbuki, Osmanlı'da bunlar olmazdı." dedi.

**OSMANLI'NIN ARMAĞANLARI**

Osmanlı'nın sosyal adalet, medeniyet ve hoşgörülü bir yapıya sahip olduğunu fakat bunun Arap dünyasında gizlenerek, devamlı yanlış bilgilerin verildiğini söyleyen Dr. Harb, "Mısır başta olmak üzere diğer Ortadoğu ülkeleri medeniyete, adalete Osmanlı zamanında kavuşmuştur. Altınparmak, Mahmudiye, Mehmed Ali Paşa Camileri, saraylar, kaleler Osmanlı'nın armağanıdır" diye konuştu.

**ORTADOĞU ÜLKELERİNİN BEKLEYİŞİ**

Osmanlı'nın zulmettiği inancının asılsız olduğunu ve Osmanlı İmparatorluğu'nun hiç bir zaman zulüm etmediğini belirten Dr. Harb şunları söyledi: "Zulüm eden Osmanlı yok, zulmedilen Osmanlı var. Yani, İslam aleminin bir araya gelmesini istemeyen güçler tarafından devamlı ekilen nifak tohumları var. Ortadoğu'da sükuneti, huzuru, medeniyeti Osmanlı getirdi. Ortadoğu'da Osmanlıya ihtiyaç var. Bütün İslam ülkelerinde Osmanlı aranıyor, yeni Osmanlı bekleniyor."

**Medya dünyasında uluslararası özdenetim**

İSTANBUL- Medya dünyasında uluslararası özdenetim uygulanacak. Basın Konseyi Başkanı Oktay Ekşi'nin Dünya Basın Konseyleri Birliği'ne başvurarak Türkiye aleyhine yapılan haksız ve gerçeğe aykırı yayınları şikayet etmesi üzerine Dünya Basın Konseyleri Birliği meseleye el koydu. Birlik Başkanı Prof. Dr. David Flint Ekşi'nin başvurusunu değerlendireceklerini belirterek Alman ve İtalyan medyasının yayınlarından örnek istedi. Basın Konseyi Başkanı Oktay Ekşi konuyla ilgili olarak şunları söyledi: "Topladığımız bilgi ve belgelerle ülkemizin uğradığı haksızlığı dünyaya duyuracağız. Birlik de konuyu meslek ilkeleri açısından inceleyecek ve Alman ve İtalyan medyasını yargılayacak. Böylece dünyada ilk defa uluslararası özdenetim yapılmış olacak."

## Osmanlı'nın adını "besmele" ile anarız

Hayfa'ya gelmeden bizi gezdiren Filistinli'nin bir jestiyle karşılaşıyoruz. Hayfa'ya geliyoruz derken birde baktık ki bir eve gelmişiz. Büyük bir muhabbet ile karşılaşıyoruz. Yine Osmanlı'nın popülaritesi sarıyor etrafımızı. Annesi *"biz Osmanlı Devleti'nin adını besmele ile anarız"* diyor. II. Abdülhamid'e büyük muhabbetleri var. Konuştukça Türkiye'nin jeo-kültürel potansiyelinin ne kadar büyük olduğunu farkediyor insan.

Görkemli bir sofra hazırlıyorlar, bizim *"no zahmet"* deyişimize aldırmadan. Yemek sonrası çay ve meyve ikram ediyorlar. Annesi bizden biraz K. Kerim okumamızı istiyor. Ben bunun sebebini merak edince Filistinli arkadaş annesinin K. Kerim'i bir Türk'ten dinlemek istediğini söylüyor ve ben Bakara Suresi'nin ikinci sayfasını okuyorum. Annesi bunu anlayıp anlamadığımızı soruyor. Okumamıza rağmen bunu anlayamamamıza inanamıyor. Ayrılırken Nihat'tan esinlenerek *"Ya valide şukran kebira"* diyorum.

FƏSİL

# Xilaskarını gözləyən Qafqaz və Orta Asiya

Türkiyə üçün Orta Şərq və Balkan yarımadasındakı tarixi üstünlük, Qafqaz və Orta Asiya olduğunda da başda gündəmə gəlməkdədir. Bu bölgədə Türkiyə üçün böyük bir potensial nüfuz sahəsi var. Qafqaz tarix boyu Rus zülmündən qaçaraq Osmanlıya sığınmış müsəlman qövmlərin diyarıdır. Orta Asiya isə, Osmanlı torpağı olmasa da, Türklük bağı ilə Türkiyəyə bağlıdır. Buna görə də, Türk millətinin işıqlı gələcəyi üçün yaradılan təsəvvür çərçivəsi təyin olunarkən, başda Türk-Rus əlaqələri olmaq üzrə, bu coğrafiyanın tarixinin arxa planının araşdırılması son dərəcə faydalı olacaq.




SSRİ-nin süqutundan sonra meydana gələn yeni Qafqaz xəritəsi, Türkiyə ilə çox yaxın bağı olan bir bölgə ortaya çıxarmışdır. Çünki

müstəqilliklərini bir-bir elan edən müsəlman Türk dövlətləri ilə Türkiyə arasında din, dil, mədəniyyət və tarixi baxımdan çox güclü bağlar var. Üstəlik siyasi və iqtisadi gücü, demokratik, çağdaş və müasir şəxsiyyəti ilə Türkiyə Orta Asiya dövlətləri üçün olduqca əhəmiyyətli bir nümunə təşkil etməkdə, hətta bu dövlətlər tərəfindən bir növ "böyük qardaş" hesab edilməkdədir. Ancaq bu bağların daha da möhkəmləndirib, bölgədə güclü bir Türk birliyi yaradılması olduğunda Türkiyənin qarşısına çox əhəmiyyətli maneələr çıxmaqdadır. Bu maneələrin ən əhəmiyyətlilərindən biri isə bölgədə itirdiyi siyasi və iqtisadi hegemoniyasını təkrar qazanmaq istəyən Rusiyadır.

Orta Asiya və Qafqaz, Rusiya baxımından əhəmiyyətli edən faktorların başında neft, təbii qaz və bölgənin sahib olduğu yüksək ehtiyatlı təbii qaynaqlar gəlir. Respublikaların müstəqilliklərini qazanmalarının arxasından Rusiya üçün xammal tapa bilməmə təhlükəsi ortaya çıxmışdır. Bununla bərabər bu torpaqlar coğrafi olaraq da Rusiya üçün strateji bir əhəmiyyət daşımaqdadır. Xüsusilə Qafqaz, Orta Asiyanın qapısı və Rusiyanın özünə böyük rəqib olaraq gördüyü İran və Türkiyənin kəsişmə nöqtəsi olması etibarı ilə son dərəcə qiymətlidir. Bütün bu səbəblər Rusiyanın bu bölgəni öz nüfuz sahəsi halına gətirmək üçün göstərdiyi səyi açıqlamaq üçün kifayətdir. Əslində bölgə üzərindəki hədəflərindən tarixin heç bir dövründə imtina etməyən Rusiya, Türkiyəyə qarşı Osmanlı dövründən bəri davam edən rəftarını da heç bir zaman dəyişdirməmişdir.

Rusiyanın Türkiyəyə və Türk millətinə olan baxışının tam mənası ilə qavrana bilinməsi üçün əvvəlcə Rusiyanın xarici siyasət anlayışının yaxşı araşdırılması lazımdır. Bir quru ölkəsi olan Rusiya, qurulduğundan bu yana davamlı olaraq sərhədlərini genişlətmək və özünə açıq qapı təmin edə biləcək dənizlərə çata bilmək ehtiyacını hiss etmişdir. Bu yayılma anlayışı Rusiyanın 18-ci əsrin başlarında sərhədlərini Baltik dənizinə qədər genişlətməsini təmin etmişdir. 1721-ci ildə isə imperatorluğunu

elan edən Rusiya bir qitə dövləti halına çevrilmişdir. Qitə dövləti olmanın təbii nəticəsi olaraq Rusiya bu tarixdən etibarən xarici siyasətini, qitəyə ən yaxın bölgələri yoxlaması altında tuta biləcək strategiya izləmək üzərinə inşa etmişdir. Buna görə Rusiya öz təhlükəsizliyini dörd ana bölgəyə nüfuz edə bilmə gücü ilə bərabər səviyyədə tutmuşdur. Bu bölgələr Balkan yarımadası, Baltik ölkələri, Qafqaz və Orta Asiyadır.44 Buna görə də, Ruslar tarix boyu bu bölgələrdə qarşı-qarşıya gəldikləri millətlərlə həmişə çaxnaşmada olublar.

Rusların ən çox qarşı-qarşıya gəldikləri ölkə isə heç şübhəsiz Osmanlı İmperiyasıdır. Ruslar ilə Osmanlılar son 300 il ərzində doqquz böyük müharibə və daha çox sayda çaxnaşma yaşayıblar.

## Osmanlı imperiyasına bağlı Rus vassallığı

Rusiyanın tarix boyu izlədiyi sərhədlərini genişləndirmə siyasəti Qafqaz torpaqlarında yaşayan müsəlman xalqa dərindən təsir etmişdir. Qafqaz torpaqları xüsusilə də 19-cu əsrdən sonra Rus genişləndirmə siyasətinə məruz qalmışdır.

Rusların şüurlu və zəruri olaraq tətbiq etdikləri köç və sürgün proqramları təməlində bu torpaqlar üzərindəki potensial müsəlman birliyinə maneə ola bilmə məqsədini daşıyırdı. Çarlıq rejiminin rəhbərliyi altında yaşayan müsəlman xalq isə həmişə özünü Anadolu müsəlmanlarına, dolayısı ilə Osmanlıya daha yaxın hiss etdi.

Həm Türklərin ədalət və tolerantlıq anlayışını yaxından bilmələri, həm də din birliyinin olması Rus vassallığı altında yaşayan xalqların tez-tez Osmanlının mərhəmətinə, ədalətinə və nizamına sığınmalarına səbəb olmuşdur. Osmanlı, tarix boyu həmişə Qafqaz Türklərinin mühafizəsini boynuna götürmüş, Türk birlikləri ilə olan tarixi və mədəni əlaqəsini heç vaxt qoparmamışdır. Necə ki, Osmanlı arxivləri də bu vəziyyəti gözlər önünə sərməkdədir. Osmanlı vassalı ikən razılaşma hökmlərinə zidd olaraq Rus idarəsinə keçən Gürcüstan xalqının hər iki rəhbərlik haqqındakı qənaətlərini ehtiva edən sənədlərə Prof. İsmət Miroğlu çalışmalarında toxunmuşdur. Bu sənədlərin hər biri Türk ədalətini və anlayışını əks etdirməklə birlikdə, bu torpaqlar üzərində yaşayan milyonlarla insanın Türkiyə ilə olan tarixi əlaqəsinin də dəlili hökmündədir. Baş nazirliyin arxivində yer edən bu sənədlərdən birində Gürcüstan xalqı Osmanlıya olan bağlılıqlarını belə dilə gətirməkdədir:




**"...Rusların təzyiqindən xilas olunmağımızı xahiş edirik. Bu hərəkətinizlə bütün Gürcüstan xalqının xeyir-duasını alacaqsınız. Gürcüstan xalqının Osmanlı idarəsindən uzaqlaşaraq Rusiyanın əlinə həvalə edilməməsini xüsusilə xahiş edirik. Biz bu zalımlar tərəfindən təqib olunduq, vətənimizi tərk etdik."45**

Qafqaz xalqları həmişə özləri Osmanlıya meylli olublar. Hər dövrdə öz torpaqlarını Osmanlı dövlətinin bir parçası olaraq görüblər, həm Türk, həm də müsəlman olmanın dərrakəsi ilə Osmanlı sultanlarına bağlılıqlarını hər fürsətdə dilə gətiriblər. Osmanlı sultanlarına yazdıqları məktublarda, onları öz torpaqlarına dəvət edib, rəsmi olaraq da Osmanlı torpaqlarının bir parçası olmağı özləri təklif etmişlər. Yenə bir Gürcü məliyi tərəfindən Osmanlı padşahına göndərilən bir məktub bu tarixi həqiqəti göstərməkdədir:

"...Həmişə dövlətin köləsi və qulluqçusuyam. Gürcüstan Osmanlı torpaqlarının bir parçasıdır. Bütün Gürcüstan xalqının Osmanlı dövlətinin sayəsində sakit həyat sürdüyü də, gün kimi ortadadır."46





Gürcüstan liderləri və xalqı tərəfindən göndərilən bir başqa məktub isə belədir:



**“On ildir Ruslar hiylə ilə məmləkətimizə girdi. Rəhbərlərimizi aldatdı... Çox şiddətli təzyiqlər başladı. Uşaqlara hücum etdi, yaşlılar və yeddi yaşında uşaqların xaricində qalan hamısını Rusiyaya apardı, halbuki Gürcüstan altı yüz ildir Osmanlı dövləti sayəsində asayişi düzgün bir ölkə idi. Biz artıq qəti qərarımızı vermişik. Ya Rusları məmləkətimizdən çıxaracaq ya da bu ölkəni başdan-ayağa məhv edəcəyik. Biz dövlətin vassalıyıq. Osmanlı dövlətinə sığınırıq.”47**



Rus insan avcıları

Rus lejyonerler

"Çeçenistan'a insan öldürmeye geldim. Çünkü paramı öldürdüğüm insan sayısına göre alıyorum"

O gün olduğu kimi, bu gün də Qafqazda yaşayan və çoxu müsəlman olan xalqlar birbaşa və ya bilavasitə olaraq Rus təzyiqinə və şiddətinə məruz qalmaqda, hətta bir çoxu qızğın müharibənin içində müstəqilliklərini, öz ənənə və adətlərini qoruya bilmək, dinlərini azad şəkildə yaşaya bilmək üçün canlarını verməkdədirlər. O gün olduğu kimi, bu gün də bu günahsız və məzlum xalqlar açıq-aşkar zülmə məruz qalmaqda, onlara uzanacaq kömək əli gözləməkdədir.




Bu coğrafiyada geostrategiya və geosiyasi baxımdan bu xalqlara tək kömək əli uzada biləcək ölkə isə heç şübhəsiz Türkiyədir. Bu ölkələrlə həm din, həm dil birliyinə sahib olan Türkiyə, keçmişi ilə olduğu qədər bu gün sahib olduğu müasir və demokratik rəhbərliyi ilə də bu bölgədə liderlik rolunu boynuna götürə biləcək tək ölkədir. Üstəlik bu, həmin ölkələr üçün olduğu qədər, Türkiyə üçün də çox ciddi mənada strateji üstünlüklər ehtiva edən roldur. Çünki Türkiyə üçün burada olan siyasi nüfuz sahəsi Qafqaz ilə məhdud deyil. Sayısı 250 milyona çıxan nəhəng Türk dünyası özlərini tək birlik altında yığacaq nüfuzu gözləməkdədir.

Orta Asiyada 1990-cı ildən sonra ortaya çıxan yeni tablo Türkiyəyə çox əhəmiyyətli və yeni bir strateji qapı açdığı kimi, 21-ci əsr üçün çox əhəmiyyətli bir məsuliyyəti də bərabərində yükləməkdədir. 1991-ci il, uzun illər kommunist Rus rəhbərliyinin şiddətə əsaslanan siyasəti altında əzilmiş, zülm görmüş olan Türk dövlətlərinin müstəqilliklərini qazandıqları bir dönüş nöqtəsi olmuşdur. 70 il davam edən təzyiqdən sonra kommunizmin süqutu ilə Orta Asiya çöllərində əsməyə başlayan müstəqillik külələri, Türk dünyasını birlik və bərabərliyə, güclü bir dünya hakimiyyətinə doğru yönəltməkdədir. Üstəlik tarix boyu dünya

dövlətləri qurmuş, üç qitəyə nizam vermiş Türk milləti bir Türk birliyi reallaşdırmaq mövzusunda da son dərəcə təcrübəlidir.

Orxon kitabələrindən Kültigin kitabəsində keçən bu cümlələr, Türkün dünyaya hakimiyyətinin və bu mövzudakı təcrübəsinin isbatı xüsusiyyətindədir:

**"Şərqdə Günəşin doğuşu, Cənubda Günəşin doğuşuna, onun içindəki millət həmişə mənə tabedir. Bu qədər milləti həmişə nizama daxil etdim... Yoxsul milləti zəngin etdim. Az milləti çox etdim."**



250 milyonluq əhalisi ilə Türk dünyası 21-ci əsrdə möhkəm addımlarla irəliləyəcək. Türkiyə və Türk Respublikaları arasında təsis ediləcək belə bir əməkdaşlığın təməl dayaq nöqtəsi şübhəsiz, 70 ildir Rusiya tərəfindən unutdurulmağa çalışılan, müsəlmanlıq və Türklük şüurunun inkişaf etdirilməsidir. Türk-İslam əxlaqının əsas elementləri olan ədalət, anlayış,

mərhəmət kimi xüsusiyyətlərin gücləndirilməsi ilə yer üzündə bu gün əskikliyi hiss edilən sülh və hüzur mühiti Türk millətinin zəmanətində bərpa ediləcək.

Türk ölkələri hər nə qədər uzun illər başqa ölkələrin boyunduruğu altında yaşamış olsalar da, bu müddət ərzində ictimai və mədəni strukturlarında köklü dəyişiklik olmamışdır. Türk adət və ənənələrinə olan bağlılıqlarını mühafizə edən bu dövlətlər tarixdə müsəlman Osmanlı dövlətinin liderliyini qəbul etdikləri kimi, bu gün də Türkiyə liderliyində yaradılacaq güclü bir "Türk Birliyi"nin həsrəti içərisindədirlər. Bu gün özbəyindən azərbaycanlısına, türkmənindən qrğızına qədər bütün müsəlman Türk xalqları Türkiyənin bu birlik mövzusunda atacağı addımları gözləməkdədir. Qazaxıstan Respublikası prezident Nursultan Nazarbayevin 28 sentyabr 1991-ci ildə İstanbulda çıxışında, Türk Respublikaların bu intizarını və gələcəyə istiqamətli ümidlərini əks etdirməsi baxımından son dərəcə əhəmiyyətlidir:

**"Ancaq bahar sellərinə nə qədər maneə törətməyə, önünə bəndlər çəkməyə çalışılsa da, su yenə də öz yolunu açacaq. Baxın, tarix çayı ilə də eynisi olmuş və "soyuq müharibə" maneəsini yıxan tarix insanlıq qanunları ilə təyin olunan əsas yatağına dönmüşdür... Xalqlarımız arasında qarşılıqlı anlayış və güvən duyğusu meydana gəldi. Dostluq təsirli bir əməkdaşlığın ən etibarlı zəmanətidir. Bu vəziyyət bizi ümidləndirir."48**

I FƏSİL

# Həll yolu və nəticə

Bura qədər qısaca Türkiyənin sahib olduğu strateji mirasa toxunduq. Bu miras 21-ci əsrdə, Türk millətini lider ölkələr sıralamasının başlarına yerləşdirəcək olan son dərəcə köklü və şanlı bir mirasdır. Tarixi və aktual həqiqətlər, bizlərə Türkün dünya liderliyinin bir utopiya deyil, istənilsə və qətiyyətlə əldə edilməsi mümkün olacaq ideal olduğunu göstərməkdədir.



Əgər Türkiyə sahib olduğu böyük mədəniyyət mirasını yaxşı qiymətləndirər, üzünü həmişə irəliyə dönük tutub, keçmişinə də hər yönü ilə sahiblənsə, qarşısında çox parlaq gələcək görəcək. Türkiyə tarixin ən köklü mədəniyyətlərindən birinin varisidir. Bu böyük miras yaxşı qiymətləndirildiyi və maddi-mənəvi əhəmiyyəti yaxşı qavrandığı təqdirdə beynəlxalq arenada ölkəmizi 21-ci əsrin lider dövlətlərindən biri halına gətirəcək.

Siyasət tarixi göstərməkdədir ki, dünyaya hakim olmaq istəyən güc hər şeydən əvvəl bu gün "Osmanlı hinterlandı" olaraq xatırlanan bölgələrə hakim olmalıdır. Çünki dünya siyasətinin ana xətləri bu coğrafiyanın ətrafında formalaşmaqdadır. Ancaq bu coğrafiyada Osmanlı dövlətindən sonra, aradan keçən bu qədər zamana və sınanan hər cür rejim və tətbiqə qarşı, hüzur və sabitlik hələ təmin edilə bilinməyib. İstər Balkan yarımadası, istərsə də Orta Şərq və Qafqaz qanayan yara mövqeyindədir. Bu torpaqlarda acının yaşanmadığı, gözyaşının axmadığı gün keçməməkdədir. Bölgə xalqları müharibələrin və qarşıdurmaların ağır yükü altında əzilməkdədir. Orta Şərqi döyüş mərkəzi halına gətirən xarici qüvvələrin varisliyini etdikləri mədəniyyət, dünya sülhünü inşa etməkdə aciz olduğunu, dünya xalqlarının son 70 ildir yaşadıqları təcrübələrlə göstərmişdir.

Dünyanın idarəsini boynuna götürən və super dövlətlər olaraq bilinən bu qüvvələr əllərindəki bütün imkanlara baxmayaraq, Osmanlının əsrlər boyu bacardığını edə bilməyiblər. Tarixin irəliləyişi, bu cür hərəkətli bir bölgənin hər an yeni strukturlara uyğun olduğunu göstərməkdədir. Osmanlı coğrafiyası da mütləq bir gün hərəkətlənəcək və özü üçün təyin olunmuş olan zorakı orbitdən çıxaraq, təbii nizamına çatacaq. Dünyanın etnik və dini baxımından ən geniş müxtəlifliyə və idarəsi ən çətin bölgələrinə nizam verən müsəlman Türk milləti, bu gün də bu tarixi vəzifəni boynuna götürməyə hazırdır.

Üstəlik Balkan yarımadası, Orta Şərq, Qafqaz və Orta Asiyanı içinə alacaq şəkildə yaradılacaq Avropa Birliyi kimi bir birlik, bölgədə var olan bütün dövlətlər üçün son dərəcə əhəmiyyətli güclənmək və qazanc olacaq. Bu coğrafiyanın sahib olduğu strateji əhəmiyyət, bölgədə yer alan dövlətlərin güclərini və imkanlarını həm iqtisadi, həm də sosial-mədəni sahədə birləşdirmələri ilə daha da artacaq. Avropa Birliyi bənzəri bir strukturun bu bölgədə reallaşması dünya siyasətinin tək mərkəzli çərçivədən çıxarılmasına da vasitə olacaq. Belə bir birlik bölgədəki hər ölkə üçün əhəmiyyətli bir dayaq nöqtəsi meydana gətirəcək və beləcə beynəlxalq arenada hər bir dövlət öz xalqının mənfəətlərini sonuna qədər qoruya biləcək. Bu sayədə böyük qüvvələr tərəfindən bölgə üzərində oynanılan oyunlara, haqsızlıq və ədalətsizliklərə son veriləcək, bütün xalqların öz gələcəyini özlərinin təyin etdiyi bir sistem hakim ola biləcək. Bölgədə yaşayan bütün xalqların haqlarının qorunmasının təmin ediləcəyi belə bir sistem şübhəsiz hər kəs üçün böyük bir qazanc olacaq.

Ayrıca bilindiyi üzrə bu torpaqlar bu gün dünyanın ən zəngin yeraltı qaynaqlarına malikdir. Sənayeləşmənin təməl xammalını meydana gətirən kömür, neft, təbii qaz, dəmir, mis kimi mədənlər baxımından başda Qafqaz və Orta Asiya olmaq üzrə bütün Osmanlı hinterlandı olduqca zəngin ehtiyatlara malikdir. Müsəlman Türkün öndərliyində bu zəngin ehtiyatlar ən xeyirli şəkildə istifadə ediləcək. Həmçinin belə bir ortaqlıq, bölgə içində yer alan ölkələri eyni müdafiə razılaşması daxilində toplayacaq və bu da müdafiəyə dair xərclərin təbii şəkildə azalmasını təmin edəcək. Bu şəkildə əldə ediləcək əlavə gəlir isə bölgə xalqlarının inkişafında istifadə edilə biləcək.

Müdafiə etmə, iqtisadiyyat və sosial-mədəni sahədə ediləcək hər cür əməkdaşlıq bölgənin rifah səviyyəsini və həyat standartlarının təbii olaraq sürətlə yüksəlməsini təmin edəcək. Və belə bir birliyin təbii lideri və öndəri Türkiyədir.

Türkiyə geostrategiya və geoiqtisadi cəhətdən bu bölgədə kilid nöqtədə yer alır. Üstəlik bütün bu xalqlar Türkiyə ilə könül bağlarını hələ də davam etdirməkdədirlər. Türkiyəyə dərin bir könül bağı ilə bağlı olan bu insanlar onlara uzanacaq kömək əli gözləməkdə və müsəlman Türk millətini xilaskar olaraq görməkdədirlər. Türkiyə albanları, boşnakları, çeçenləri, çərkəzləri, azərbaycanlıları, gürcüləri və hətta xorvatları, serbləri, rumları və bolqarları belə yeni bir "Osmanlı Millətlər Birliyi" altında yığa bilər. Necə ki, bütün bu cəmiyyətlərin çoxu, hal-hazırda Osmanlı dövründə gördükləri hüzuru və etibarı yenidən yaşayacaq nizamın təmin edilməsini istəyir və bunun üçün də Türkiyəyə ümidlə baxmaqdadır.

Türkiyə yaradacağı strategiyalarla həm bütün Orta Şərq, Balkan yarımadası, Qafqaz və Orta Asiyada qalıcı sülhü təmin edə biləcək, həm də bu birlikdən meydana gələcək iqtisadi gücü ən ədalətli və doğru şəkildə idarə edə biləcək tarixi təcrübəyə malikdir. Heç bir qüvvə tarixə istiqamət vermiş, insanlığa sülhü, ədaləti və hüzuru hədiyyə etmiş nəhəng mədəniyyətə və təcrübəyə sahib, köklü və zəngin mədəniyyətin qurucusu olan bir millətin sahib olduğu həssaslığı yox edə bilməz.

Keçmişdə olduğu kimi bu gün də müsəlman Türk milləti səbri, imanı və gözəl əxlaqı ilə məzlumun yanında, zalımın qarşısında yer alacaq, fərqli mədəniyyətlərdən və köklərdən gələn insanları ədalət və tolerant çətirində birləşdirəcək və bütün dünyanın həsrətini çəkdiyi sülh və təhlükəsizlik mühitini meydana gətirəcək.

21-ci əsr, Allahın icazəsi ilə, bütün müsəlman və Türk xalqları üçün aydın dövr olacaq...

FƏSİL 2

# İslam birliyinə doğru

## Osmanlının tarixi miras sahibi olan Türkiyənin rəhbərliyində reallaşacaq

### İSLAM BİRLİYİNƏ DOĞRU



Olduqca geniş coğrafiyanı və 1.2 milyard müsəlmanı əhatə edən İslam dünyasının təməl ehtiyaclarından biri olan "İslam Birliyi"ni əsas aldığımız bu hissədə, bu cür birlik yaradılmasının lazımlı və təcili olması üzərində dayanacağıq.

Bu gün İslam dünyasının vəziyyəti qiymətləndirildiyində ilk diqqəti çəkəcək xüsusiyyətlərdən biri, müsəlmanların öz aralarındakı

parçalanması olacaq. Bəzi İslam ölkələri arasında dərin anlaşılmazlıq və ixtilaflar var. Hətta yaxın keçmişdə, İran-İraq müharibəsi, İraqın Küveyti işğalı, Pakistan-Banqladeş müharibəsi kimi müsəlman ölkələr arasında keçən müharibələr yaşanmışdır. Müsəlman ölkələrdə əksəriyyətlə etnik və siyasi problemlərə görə baş verən vətəndaş müharibəsi və qarşıdurmalar da (məsələn Əfqanıstanda, Yeməndə, Livanda, İraqda və ya Cəzairdə olduğu kimi) İslam dünyasının bu cür olmadığını göstərməkdədir. Həmçinin İslam dünyasının dörd bir tərəfində bir-birindən son dərəcə fərqli, əhli sünnə əsaslarına zidd dini izahlar, fikirlər və modellər hakimdir. Nəyin həqiqətən İslama uyğun olub, nəyin zidd olduğunu təyin edəcək, bu mövzuda dünya müsəlmanlarına istiqamət verəcək, onları birləşdirə biləcək mərkəzi nüfuz yoxdur. Katoliklərin Vatikanı, Ortodoks xristianların tuhaniləri var, amma İslam dünyasında dini bir birlik və mərkəz yoxdur.

## İslam birliyinin qanunları nələr olmalıdır?

Halbuki İslam əxlaqının təməlində birlik var. Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.v)-in vəfatından sonra, İslam dünyası həmişə xəlifə idarə edib, bu vəzifə müsəlmanların dini mövzulardakı yol göstəricisi olub.



İndiki vaxtda da İslam dünyasının hamısına yol göstərəcək müasir bir mərkəzi avtoritet qurula bilər. Demokratik əsaslara və hüququn üstünlüyü prinsipinə söykənən mərkəzi bir İslami avtoritetin və İslam Birliyinin qurulması, İslam dünyasının mövcud problemlərinin aradan qaldırılmasında çox əhəmiyyətli addım olacaq. Bu İslam Birliyi;

1) İslam dünyasının hamısına xitab edə bilməli, buna görə ən fundamental İslami dəyərlərə və əsaslara söykənməli, müəyyən bir məzhəbin və ya təriqətin nümayəndəsi olmamalıdır.

2) İnsan haqlarına, demokratiyaya, sərbəst təşəbbüskarlığa dəstək verməli, İslam dünyasının iqtisadi, mədəni və elmi yöndən inkişafını əsas hədəf olaraq təyin etməlidir.

3) Digər ölkələr və mədəniyyətlərlə son dərəcə sülhsevər və uyğun əlaqələr qurmalı, beynəlxalq qüvvələrlə əməkdaşlıq etməlidir.

4) İslam dünyasındakı azlıqların və İslam ölkələrinə gələn əcnəbilərin haqlarının qorunması, onlara təhlükəsizlik təmin edilməsi və hörmət göstərilməsi kimi mövzuları fundamental olaraq ələ almalıdır.

5) Fələstin, Kəşmir, Moro kimi, müsəlmanlar ilə müsəlman olmayan xalqları qarşı-qarşıya gətirən problemlərə; ədalətli və sülhsevər çözümlər gətirilməsinə əhəmiyyət verməlidir. Həm müsəlmanların haqlarını müdafiə etməli həm də bu problemlərin, bəzi ünsürlər tərəfindən çıxılmaz vəziyyətə gətirilməsinə mane olmalıdır.

## Quran əxlaqına əsaslanan birlik

İslam dünyasının bu cür ağıllı, sağlam düşüncəli və ədalətli liderliyə qovuşması, həm bu gün bir çox problemlə qarşı-qarşıya olan 1.2 milyard müsəlman üçün, həm də dünyanın bütün digər insanları üçün çox xeyirli olacaq. Quran əxlaqına əsaslanaraq qurulacaq İslam Birliyi, bütün dünyanın ədalət və təhlükəsizlik əldə etməsinə, Quran əxlaqının gətirdiyi mükəmməlliyi sayəsində hüzurun yerləşməsinə vasitəçi olacaq. Müsəlmanlar, peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.v)-in dövründən bu yana, insanlığa; ağıl, elm, düşüncə, sənət, mədəniyyət kimi sahələrdə liderlik etmiş, "insanların xeyiri"nə böyük əsərlər ortaya qoymuşlar.

Avropa Orta əsrlərin qaranlığında ikən, dünyaya elmi, ağlı, tibbi, sənəti, təmizliyi və digər bir çox xüsusiyyəti müsəlmanlar öyrətmişdir. Quranın nurundan və hikmətindən qaynaqlanan bu İslami yüksəlişi təkrar başlatmaq üçün, keçmişdə olduğu kimi bu gün də müsəlmanların Quran əxlaqını və Peyğəmbər Əfəndimizin sünnəsini təməl alan bir yol göstəriciliyə ehtiyacları var.

## Bu layihə necə həyata keçirilə bilər?




Əvvəlcə bu mövzuda bütün İslam ölkələrinin yanında Türkiyəyə böyük rol düşdüyünü ifadə etmək lazımdır. Çünki Türkiyə, dediyimiz mənada bir İslam Birliyini qurmuş və 5 əsrdən uzun müddət ərzində müvəffəqiyyətlə idarə etmiş olan Osmanlı İmperiyasının varisidir. Bu məsuliyyəti təkrar boynuna götürə biləcək ictimai infrastruktura və dövlət ənənəsinə malikdir. Üstəlik Türkiyə, İslam dünyasının Qərb ilə əlaqələri ən inkişaf etmiş ölkəsidir ki, bu Qərb ilə İslam dünyasındakı problemlərin həllində vasitəçilik edə bilməsinə imkan verər. Türkiyənin tarixi olaraq tolerant və münasib anlayışa sahib olması; Türkiyənin İslam dünyasında dar bir məzhəbi deyil, dünya müsəlmanlarının böyük əksəriyyətinin izlədiyi əhli-sünnə inancını təmsil etməsi də, onu İslam Birliyinə rəhbərlik etməyə namizəd edən əhəmiyyətli bir xüsusiyyətdir.

## Mədəniyyətlər qarşıdurmasının həlli və İslam birliyi

Bu hissədə ələ alınan çözümlərin vaxt itirmədən həyata keçirilməsi son dərəcə əhəmiyyətlidir. Çünki İslam dünyası ilə Qərb arasındakı "mədəniyyətlər qarşıdurması" təhlükəsi hər keçən gün böyüməkdədir. İslam Birliyinin qurulması ilə birlikdə bu təhlükə tamamilə ortadan qalxacaq. Tarixdə yaşanan təcrübələr açıq şəkildə göstərməkdədir ki, fərqli mədəniyyətlərin bir yerdə yaşaması, mütləq bir gərginlik və qarşıdurma səbəbi deyil. Fərqli mədəniyyətləri bir yerdə saxlayan dövlət, bünyəsində fərqliliklər olduğu üçün deyil, bu fərqlilikləri idarə etmək (və ya edə bilməmək) səbəbi ilə problemlərlə qarşılaşmaqdadır. Ya da yan-yana gələn mədəniyyətlər, bir-birlərinə qarşı anlayışlı olub-olmamalarına, öz daxilindəki anlayışsız ünsürləri idarə altına alıb-ala bilməmələrinə görə, qarşıdurma və ya sülh və əməkdaşlıq yolunu seçməkdədirlər. İndiki vaxtda da anlayış və birləşmə yerinə, Qərbdə düşmənçilik və qarşıdurmanı seçmək istəyənlər var. Bunlara görə İslam və müsəlmanlar haqqındakı bəzi səhv başa düşmə və ön mühakimə davam etməkdə və bu, İslam dünyası üçün bəzi çətinliklər yaratmaqdadır. Qərb isə, müxtəlif səhv anlayışlara görə lazımsız yerə narahatlıq hiss edir. Bütün bu çətinlikləri aradan qaldıracaq çözümə çox təcili olaraq ehtiyac var.

Bu sətirləri əgər bundan 20, 30, 40 və ya 50 il əvvəl qələmə almış olsaydıq, onda bir "İslam Birliyi"ndən danışmaq daha çətin olardı. Çünki nə dünyanın, nə də İslam dünyasının vəziyyəti, belə bir birliyin meydana gəlməsi üçün lazımlı şərtləri ehtiva etmirdi. Əksinə, belə birliyin qurulmasına maneə ola biləcək bir çox şərt var idi. Ancaq dünya, 1980-ci illərdən etibarən silsilə dəyişiklik keçirdi və bunlar İslam Birliyindən

danışmağı və bunun qurulması üçün mümkün etdi. İslam Birliyinin yolunu açan bu böyük dəyişiklikləri sırası ilə araşdıraq:

## Müsəlmanların azad olması

Yer üzündəki son İslam Birliyi; Osmanlı İmperiyası idi. Onun süqutundan etibarən, İslam dünyası irili-xırdalı dövlətlərə bölündü, bu dövlətlərin çoxu uzun müddət Qərb dövlətlərin müstəmləkəsi oldular. 1920-ci ildən sonra bütün Orta Şərq, Şimali Afrika, Hind Yarımadası və Passivik müsəlmanları, İngiltərə və Fransa başda olmaq üzrə, Avropalı müstəmləkəçi dövlətlərin suverenliyi altına girdilər. Orta Asiya və Qafqazdakı müsəlmanlar, daha qatı bir idarənin, Sovet rus diktatorluğunun altında idilər. Balkan müsəlmanları, serblər və xorvatlar kimi müsəlman olmayan xalqların rəhbərliyi altına girdilər, 2-ci dünya müharibəsindən sonra isə bu rəhbərliklər bir də kommunist ideologiya mənimsəyərək İslam əleyhdarı quruluşa büründülər.

Qısaca 20-ci əsrin əhəmiyyətli bir hissəsində dünya müsəlmanlarının böyük hissəsi müstəmləkə idi. 1950-ci illərdə və 60-cı illərdə müstəmləkəçiliyin bitməsi ilə müsəlmanlar da azad olmağa başladılar. İngiltərə əvvəl Hind yarımadasını, ardından da Orta Şərqi tərk etdi. Hind yarımadasında Pakistan və sonradan Banqladeş adını alacaq Şərqi Pakistan quruldu. Orta Şərqdəki Misir, İordaniya, İraq kimi müsəlman dövlətlər müstəqilliklərini qazandılar. Şimal Afrika, uzun və acılı bir müddətdən sonra Fransız imperializmindən xilas oldu. Afrikadakı digər müsəlman ölkələr də, 1960-cı illərdə bir-birinin ardınca müstəqilliklərini qazandılar. Şərqdə Malayziya və İndoneziya eyni ildə, 1965-ci ildə müstəqilliklərini elan etdilər.

1980-ci illərin sonunda Kommunist Blokun və 1991-ci ildə SSRİ-nin süqutu ilə, bu rəhbərliklərin idarəsi altındakı müsəlmanlar da azadlıq əldə etdilər. Orta Asiyadakı müsəlman Türkü dövlətlər 1.5 əsrdən çox

müddətdir davam edən Rus hökmranlığından xilas olub müstəqil respublika oldular. Kommunizmin süqutu, Balkan müsəlmanlarına da azadlıq gətirdi. Bosniya və Herseqovina, serblərin hökmranlığındakı Yuqoslaviyadan xilas oldu və Avropanın ortasında bir müsəlman dövlət olaraq səhnəyə çıxdı. Albaniya əli qanlı, qatı ateist diktator Ənvər Xəlil Xocanın qurduğu zalım kommunist rejimdən xilas oldu.

Bu gün müxtəlif ölkələrdəki azlıqlar və Fələstin, Kəşmir kimi işğal altındakı bir neçə müsəlman ölkə xaric, dünya müsəlmanları öz siyasi suverenliklərinə sahibdirlər. Bu böyük siyasi dəyişiklik, 20-ci əsr boyu mümkün olmayan "İslam Birliyi"ndən danışmağı, 21-ci əsrdə mümkün etməkdədir.

## Dindən kənar ideologiyaların təsirinin azalması

İslam ölkələri yuxarıda ifadə etdiyimiz kimi 1950-ci illərdən etibarən müstəqilliklərini qazanmağa başladılar, amma müstəqillik hər zaman "şüur" mənasını vermirdi. Əksinə, müstəqilliklərini qazanan İslam ölkələrinin bəzilərində, İslam əxlaqının təməlindəki dəyərlərlə ziddiyyət təşkil edən ideoloji axınlar güc qazandı.

1950-ci illərdə və 1960-cı illərdə Ərəb dünyasına dərindən təsir edən "Ərəb sosializmi" bunun bir nümunəsi idi. İslam əxlaqında heç bir şəkildə yeri olmayan qatı Ərəb milliyyətçiliyinə və yenə İslamda yeri olmayan radikal Marksist ifadələrə və metodlara əsaslanan Ərəb milliyyətçiliyi, bir anda güc əldə etdi, ancaq sürətlə gerilədi. Ərəb dünyasına isə ancaq zaman itkisi və gərginlik gətirdi.

Bunun xaricində müsəlman ölkələr fərqli qütblərə yayılıblar. O dövrdə dünya ABŞ və SSRİ-nin öndərliyində iki qütbə ayrılmışdı və müsəlman ölkələr, ortaq hərəkət etmək bir tərəfə, bu iki qütbə demək olar ki, bərabər olaraq yayılmış vəziyyətdə idilər. Ərəb ölkələrinin çoxu Sovet

İttifaqına yaxın dayanırdı. Müsəlman Misir, müsəlman Pakistanla müharibə vəziyyətindəki Hindistanla ortaq hərəkət edərək "Qoşulmama Hərəkatı"na liderlik etməkdə qorxu görmürdü.

İslam dünyasının, siyasi, strateji və mədəni mənada həqiqətən "İslam Dünyası" olaraq yoxlanılması və ortaya çıxması, ancaq soyuq müharibənin bitməsindən sonra mümkün oldu. Soyuq müharibə var ikən, "İslam dünyası"ndan danışmaq o qədər də mümkün deyildi. Soyuq müharibədən sonra isə, "İslam dünyası" əhəmiyyətli bir rol əldə etdi.

Soyuq müharibə dövrünün qalıqlarının İslam dünyasından təmizlənməsi müddəti isə hələ davam edir. Bununla birlikdə baş verən hadisələr, Orta Şərqdə daha tolerant və demokratik bir iqlimin meydana gələcəyini müjdələyir və bu da İslam əxlaqının başa düşülməsi, izah edilməsi və yaşanması üçün şübhəsiz ki daha əlverişli mühit hazırlayır. Eyni zamanda müsəlmanlar arasındakı ənənəvi bəzi ayrı-seçkiliyin də, Orta Şərqdə baş verən axırıncı siyasi proseslərlə yumşalması diqqət çəkicidir. ABŞ-ın İraq işğalı əsnasında İraqdakı sünnilərin və şiələrin, tarixdə ilk dəfə eyni məscidlərdə namaz qılmaları və ortaq xütbələr vermələri kimi...

## Xarici əlaqələrdə "mədəniyyət" anlayışının əhəmiyyətinin artması

Soyuq müharibənin bitməsi, müsəlmanları iki ayrı siyasi düşərgəyə ayıran zəruri bölünməni aradan qaldırdı. Bununla birlikdə, siyasi ideologiyalar yerinə mədəniyyətlərin ön plana çıxmasını təmin etdi. Samuel Hantinqtonun ifadə etdiyi kimi, artıq insanlar "kimin tərəfindəsiniz" sualı ilə deyil, "kimsiniz" sualı ilə təyin olunacaq vəziyyətə gəldi. Balkan yarımadasından Orta Asiyaya, Uzaq Şərqdən Şimali Afrikaya qədər, özlərini daha əvvəl "sosialist", "yuqoslav", "sovet", "anti-kommunist" və ya "milliyyətçi" olaraq müəyyən edən bir çox

insanın bu xüsusiyyətləri deyil, hansı mədəniyyəti təmsil etdikləri əhəmiyyətli hala gəldi.

Dünyanın mədəniyyətlər əsasında təyin olunmasının tək səbəbinin soyuq müharibənin bitməsi olmadığına da diqqət yetirmək lazımdır. Bir başqa əhəmiyyətli səbəb, bütün dünyada ateizmin süqutu və din əxlaqının yüksəlməsidir. Bu, son iki əsrdir bütün dünyada mədəni hegemoniya qurmuş olan materialist fəlsəfənin yeni elmi və ictimai tərəqqi ilə süqut etməyə başlaması ilə yaxından əlaqədardır. Xüsusilə elmi tərəqqi, materializmin dayaqlarını yıxmaqda və beləcə insanların Allahın varlığının dəlillərini daha açıq şəkildə görə bilmələrini təmin etməkdədir. Allaha inancın gedərək gücləndiyi, insanların yenidən din əxlaqına yönəldiyi bir dövrdə, şübhəsiz İslama olan iman da yüksəlməkdədir.

## İslamın dünya gündəmindəki yüksəlişi

Bütün dünyada din əxlaqının yüksəlməsi qədər diqqət çəkən bir fakt daha var: Bütün dinlər içərisində ən çox yüksələn din İslamdır. Bu gün İslam dünyanın ən sürətli böyüyən dinidir və bu həqiqət hər kəs tərəfindən qəbul edilməkdədir. Üstəlik, İslam dünya gündəminin ən əhəmiyyətli mövzusudur.

Bundan 30-40 il əvvəl isə vəziyyət daha fərqli idi. Dünya, soyuq müharibənin dar ideoloji qəliblər içində düşünürdü. Həmçinin materialist fikirlərin təsiri ilə din əxlaqının insanların və cəmiyyətlərin həyatında təyin edici olmayacağı yanılması hakim idi. Halbuki 1980-ci illərin əvvəlindən etibarən İslam bir anda dünya gündəminin zirvəsinə çıxdı və İslam əxlaqının insanları və cəmiyyətləri hərəkətə keçirə biləcək böyük bir qüvvə olduğu Qərb ölkələri tərəfindən də fərq edildi.

1990-cı illərdə Qərb dünyasının İslama olan marağı daha da artdı. Mediada İslam haqqında xəbərlərin sayındakı artım, bunun göstəricilərindən biri

idi. İslama istiqamətli ən böyük maraq isə 11 sentyabr hücumlarından sonra başladı. Qərb dövlətləri, ən başda da amerikalılar, İslam əxlaqını yaxından tanımaq, müsəlmanları anlamaq üçün böyük səy göstərdilər. Bu gün Qərb mediasının və Qərb akademik fəaliyyətlərin çox böyük hissəsi İslamiyyətlə bağlıdır. Bunların bir hissəsi ön mühakiməli şərhlər ehtiva etsə də, nəticədə dünyanın diqqətini İslama çəkməkdə və daha çox insanın İslam əxlaqına yönəlməsinə vasitə olmaqdadır.

## Müsəlmanlar arasındakı qlobal ünsiyyətin artması

İslam Birliyinin yolunu açan çox əhəmiyyətli bir başqa irəliləyiş isə, 1980-ci illərdən bəri gedərək yüksələn, 1990-cı illərdə (başda internet olmaq üzrə) ünsiyyət texnologiyasının inkişafı ilə böyük önəm qazanan qloballaşma müddətidir. Bəzi müsəlmanlar, Qərb mədəniyyətinin daşıyıcısı olaraq gördükləri qloballaşmanı mənfi şəkildə qiymətləndirməkdədir. Halbuki həqiqətdə bütün dünyanın bir-biri ilə sıx mədəni mübadilə içinə girməsi və dünyanın bütün mədəniyyətlərinin ortaq bir dillə ünsiyyət qurmasını təmin edən qloballaşma, dünya müsəlmanlarının məlumat əldə etməsini asanlaşdıraraq, bir-birləri ilə olan ünsiyyət və iş ortaqlığını əvvəllər görülməmiş şəkildə böyütmüşdür. Beləcə, müsəlman xalqların maariflənmə də çox böyük vəsilə olmuşdur.

Sadəcə interneti əsas götürmək belə, müsəlmanlar arasındakı ünsiyyətin nə qədər inkişaf etdiyini göstərməkdədir. İnternetin yanında media da dünya müsəlmanlarını birləşdirməkdədir. Hər hansı bir İslam ölkəsindəki bir mövzu, bir anda bütün İslam ölkələrində izlənilməkdə, əks-səda oyandırmaqda və müsəlmanların da problemi olmaqdadır. Bütün bu imkanlar, müsəlman dünyasının daha aydın bir gələcəyə qovuşa biləcəyini göstərməkdədir.

## Qərb dövlətlərin yeni bir Osmanlı axtarışları

Qurulması üçün çalışdığımız İslam Birliyi həm müsəlmanlar, həm də müsəlman olmayanlar üçün bir çox fayda təmin edəcək, ədalətli, demokratik və müasir bir quruluş olacaq. İslam Birliyinin qurulması zamanı, başda Qərb olmaq üzrə digər mədəniyyətlər, dostca və sülhsevər əlaqələr qura biləcək, stabil və etibarlı güc olacaqlar. Sözdə müsəlmanlar adına ortaya çıxan bəzi radikal axımların qarşısının alınması və düzəldilməsi, İslam Birliyinin işi olacaq; Qərbin bu mövzudakı narahatlıqları tamamilə ortadan qalxacaq.

İslam Birliyinin yaxınlaşmaqda olduğunu göstərən əhəmiyyətli əlamətlərdən biri də, "İslam Birliyi ehtiyacı"nın, Qərb tərəfindən də fərq edilməyə başlanmış olmasıdır. Xüsusilə keçmiş Osmanlı coğrafiyası üzərində bir əsrdir davam edən nüfuz boşluğu təsbit edilməkdə və həllin ancaq Osmanlı modelinin hər hansı bir formada yenidən həyata qaytarılması ilə mümkün olacağı fikri əks-səda doğurmaqdadır.

Qərblilərin belə "Osmanlı İmperiyasının yenidən qurulması lazım olduğu"nu düşündükləri bir dövrdə, müsəlmanların bu işə dörd əllə tutmaları lazımdır.

Hicri 14-cü əsrin əvvəlindən etibarən baş verən hadisələr, müsəlmanların tarixin əhəmiyyətli dönüş nöqtəsində olduqlarını göstərməkdədir. Hamımıza düşən vəzifə, bu məsuliyyətə layiq olmaqdır.

5 FƏSİL

# İslam dünyasına çağırış

Bu gün artıq bütün dünyada din əleyhinə fikir sistemləri çökməyə başlamış, insanlar Allaha, imana və din əxlaqına yönəlməyə başlamışlar. Üstəlik İslam, dünya gündəminin ən əhəmiyyətli mövzusu olmuş, insanlığın diqqəti Haqq dinə çevrilmişdir. Dövrümüzün texnoloji imkanları isə, müsəlmanların həm bir-birləri ilə əməkdaşlıq etmələrini asanlaşdırmış, həm də insanlara İslam əxlaqının gözəlliklərini izah etmək üçün hər cür kütləvi informasiya imkanını təmin etmişdir.

Bütün müsəlman ölkələr, İslam Birliyinə hazırlanmalıdır. Digər müsəlman ölkələrlə aralarındakı əlaqələri inkişaf etdirməli, bir tərəfdən də həqiqi İslam əxlaqının öz ölkələrində daha yaxşı yerləşməsi üçün mədəni fəaliyyətlər etməlidirlər.

Hər müsəlman getdiyi məsciddə, oxuduğu məktəbdə, iş yerində, ziyarət etdiyi internet platformasında, üzvü olduğu vəqfdə və ya quruluşda, dünya müsəlmanlarının birliyi üçün səy göstərməli, digər müsəlmanları bu mövzuda təşviq etməlidir.

Dünyaya işıq tutacaq, həm müsəlmanlara, həm də İslam coğrafiyasında yaşayan azlıqlara gözəllik təqdim edəcək, yer üzünə ədalət və sülh gətirəcək o böyük İslam mədəniyyətinin yenidən yaşıllaşması bütün müsəlmanların duasıdır. Allahın icazəsi ilə, İslam Birliyinin qurulması, bütün bu gözəlliklərə bir vəsilə olacaq.

FƏSİL 4

# Ədəbiyyat


1) Yılmaz Öztuna, “Osmanlı Devlet Tarihi I”, Ankara, T.R. Mədəniyyət Nazirliyi nəşri, yayım 2068, 1998

2) Prof. Dr. Ramazan Özey, “Yiğit Düştüğü Yerden Kalkar”, Tarix və Düşüncə, avqust 2000, səh. 28

3) Hakan Arslan, “Yeni Şafak”, 15 may 1999

4) “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, İstanbul Turan Nəşriyyat və Mətbəəçilik, 1969, cild 1, səh 182

5) Ramazan Özey, “Yiğit Düştüğü Yerden Kalkar”, Tarix və düşüncə, avqust 2000, səh. 30

6) http://www.tevhidweb.f2s.com/ogut/edabali.htm

7) Cela-zade Mustafa, Selim-name, Ankara Mədəniyyət Nazirliyi, 1990

8) Prof. Dr. İsmet Miroğlu, “Osmanlı Yönetiminde İnsan ve Hukuka Saygı”, Tarix və mədəniyyət, yanvar 1999, səh. 16

9) Prof. Dr. İsmet Miroğlu, “Osmanlı Yönetiminde İnsana ve Hukuka Saygı”, Tarix və mədəniyyət, yanvar 1999, səh.19

10) Osman Turan, “Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi”, İstanbul 1969, səh. 193

11) A. Gibbons, “Osmanlı İmparatorluğu'nun Kuruluşu”, Tərcümə: Ragıp Hulusi, İstanbul, 1928, səh. 63

12) Prof. Dr. Ramazan Özey, “Yiğit Düştüğü Yerden Kalkar”, Tarix və düşüncə, avqust 2000, səh 30

13) Osman Turan, “Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları”, Turan Nəşriyyat və Mətbəəçilik, İstanbul 1969, cild 2, səh. 122

14) Derleyen Mutlu Altay, “Türkler İçin Ne Diyorlar?”, Türk Mədəniyyətini Araştırma İnstitutu, Diyanət Vəqfi, İstanbul Araşdırma Mərkəzi Kitabxanası, səh. 11

15) Aşıkpaşazade, “Teravih-i Al-i Osman”, İstanbul 1332, səh. 30

16) The Grand Turk, “Suleyman the Magnificent, Sultan of Ottomans”, New York, 1929, Fransızca tərcümə: Soliman le Magnefique, Paris 1930, səh. 84

17) “Granduir et Decadance de l'Asie”, Paris 1939, səh. 126-128, (Tarix və Mədəniyyət Jurnalı, yanvar 1999, səh.16)

18) “Macar sərhədlərində XVI: əsr Türk Dövrü”, Türk tərcümə., Bozqurd, sayı 82, səh. 309

19) a.k.ə., sayı XVI 91, səh. 50

20) Derleyen Mutlu Altay, “Türkler İçin Ne Diyorlar?”, Türk Mədəniyyətini Araştırma İnstitutu, Diyanət Vəqfi İstanbul Araştırma Mərkəzi Kitabxanası, səh. 18-19

21) E. Esenkova, "Türk Düşüncesi", 1955, fevral, səh. 196

22) Joseph Hammer-Purgstall, "Histoire de l'Empire Ottoman, Depuis son Origine jusqu'à nos jours", Paris 1839, XV. 350

23) Mehmed Niyazi, "Medeniyet Ülkesini Arıyor", İstanbul 1991, səh. 51, Tuğra Nəşriyyat

24) Ali Ünal, "Müslüman Türk'ün Dünyası ve Sürülmeye Çalışılan Lekeler", 23 yanvar 1997, Zaman qəzeti

25) N. Iorga, "Histoire des Etats Balcaniques", Paris 1925, səh. 4

26) Mahomet II, "Le Conquerant et Son Temps 1432-1481", Paris 1954, səh. 502

27) Süleyman Kocabaş, "Tarihte Adil Türk İdaresi", Vatan nəşriyyat, İstanbul 1994, səh. 86

28) "Tarih ve Medeniyet" jurnalı, fevral 1995, səh. 27

29) "Ha'aretz" qəzeti, 18.8.2000

30) Jason Goodwin, "Learning From the Ottomans", 16.8.1999, New York Times

31) Prof. Dr. Ramazan Özey, "Yiğit Düştüğü Yerden Kalkar", Tarix və düşüncə, avqust 2000, səh. 30

32) Şükrü Karatepe, "Yeni Şafak", 29 mart 1999

33) Baş Nazirlik Arxivi, Bulqarıstan İdare Kataloqu, nömrə 89

34) Baş Nazirlik Arxivi, Bulqarıstan İdare Kataloqu, nömrə 79

35) Maria Todorova. "The Ottoman Legacy in the Balkans", "The Balkans: A Mirror of the New International Order". (ed. G. G. Özdoğan, K. Saşbaşlı) Eren, İstanbul, 1995. səh. 70

36) Eran Frankel. "Turning a Donkey into a Horse: Conflict and Paradox in the Identity of Macedonian Muslims", 23rd National Convention of the AAASS, Miami, 1991

37) Eran Frankel. "Turning a Donkey into a Horse: Conflict and Paradox in the Identity of Macedonian Muslims", 23rd National Convention of the AAASS, Miami, 1991

38) Maria Todorova. "The Ottoman Legacy in the Balkans". The Balkans: A Mirror of the New International Order. (ed. G. G. Özdoğan, K. Saşbaşlı) Eren, İstanbul, 1995. səh. 71

39) Maria Todorova. "The Ottoman Legacy in the Balkans". The Balkans: A Mirror of the New International Order. (ed. G. G. Özdoğan, K. Saşbaşlı) Eren, İstanbul, 1995. səh. 72

40) "Gündüz" qəzeti, 12 yanvar 1997

41) İsmail Yediler, "Osmanlı'nın yani İslam'ın", 22 sentyabr 1994, Zaman qəzeti

42) Dr. Abdullah Manaz, "Dünyada ve Türkiye'de Siyasal İslamclık", səh. 160-163

43) Lenni Brenner, "The Iron Wall: Zionist Revisionism from Jabontinsky to Shamir", London Zed Books, 1984, səh. 141-143

44) Oya Akgönenç Mughissuddin, "Rusya/Ortodokslar", Yeni Türkiye (Türk Xarici Siyasəti, Xüsusi Sayı), sayı 3, mart-aprel 1995, səh. 446

45) Baş Nazirlik Arxivi, Hatt-ı Hümayun, Nömrə 44615 g.ı, T. 1814

46) Baş Nazirlik Arxivi, Hatt-ı Hümayun, Nönrə: 44615 i.ı, T. 1814

47) Şinasi Altundağ, "Osmanlı İdaresi ve Gürcüler", DTCFD, X, 1-2 (11952), səh. 88

48) Doç. Dr. Ramazan Özey, "Türk Dünyası, Tarih ve Medeniyet" jurnalı, dekabr 1996, səh. 60

KİTAB HAQQINDA

**Türkiyə, Osmanlı İmperiyasının varisi olaraq, keçmiş Osmanlı torpaqlarında yaşayan bütün xalqların sevgisini, etimadını qazanmış vəziyyətdədir. Bu, Türkiyəyə böyük bir güc qazandırmaqdadır.**

Türkiyə, əgər sahib olduğu Osmanlı irsini iqtisadi və siyasi güclə dəstəkləyərsə, həqiqətən də XXI əsrdə çox mühüm regional qüvvə ola bilər. Bu məqamda görüləcək ən vacib mühüm işlərdən biri, Osmanlının qurmuş olduğu nizamı tarixi sübutları ilə ortaya qoymaqdır.

Bu kitab, Osmanlı mirasının əhəmiyyətini və bu mirasın bugünkü Türkiyənin gələcəyi üçün nə ifadə etdiyini izah etməkdədir.

— HARUN YƏHYA —

**MÜƏLLİF HAQQINDA**

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur.